# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 48 (3286) Cümə axşamı / 21-22 may 2020-ci il Qiymәti 40 qəpik




# Müharibə hələ bitməyib

**Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi açıqlama yayıb. Açıqlamada deyilir ki, Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində işğalçı Ermənistanın təşkil etdiyi qeyri-qanuni "seçkilərin" və qondarma "andiçmə" şousunun təşkili Ermənistanın ilhaqçı siyasətinin növbəti bariz nümayişidir:**

"Azərbaycan Respublikasının Konstitusiyası, həmçinin beynəlxalq hüququn norma və prinsiplərinə ziddiyyət təşkil edən və müvafiq olaraq, beynəlxalq ictimaiyyət tərəfindən birmənalı şəkildə rədd edilən qondarma "seçkilər"in nəticələrinin hər hansı bir hüquqi qüvvəsi yoxdur və ola da bilməz. Azərbaycanın işğal olunmuş ərazilərində qurulmuş separatçı rejim təcavüzkar Ermənistanın Azərbaycana qarşı qeyri-qanuni güc tətbiqi, ərazilərinin beşdə-birinin işğalı, qanlı etnik təmizləmə və yüz minlərlə məcburi köçkünün fundamental hüquqlarının pozulmasının nəticəsidir.

Azərbaycan xalqının tarixi-mədəni irsində xüsusi əhəmiyyəti olan Şuşa şəhərində "andiçmə" adı altında təşkil edilən bu təxribatda təcavüzkar Ermənistanın baş nazirinin iştirakı, özünü "demokrat" kimi təqdim edən birinin demokratiya anlayışına qara ləkə sürməsindən başqa bir şey deyildir. Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarının hərbi işğalının davam etdiyi və Dağlıq Qarabağın azərbaycanlı əhalisinin zor gücünə didərgin salınaraq seçki hüquqlarından məhrum edildiyi bir şəraitdə hər hansı "seçki" və ya "andiçmə"-dən danışmaq hüquqazidd olduğu qədər, heç bir sağlam məntiqə sığmır və beləliklə, hamılıqla pislənir və rədd edilir.

ardı səh. 4

## Yoxlama

■ **Gömrükçülər narkotik vasitə aşkarlayıblar. Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən hafta.az-a bildirilib ki, Cənub Ərazi Baş Gömrük İdarəsinin Astara gömrük postunda ölkəmizdən tranzit keçməklə İrandan Rusiya Federasiyasına "DAF" markalı nəqliyyat vasitəsilə ilə yük aparan Azərbaycan vətəndaşının hərəkətləri şübhə doğurduğu üçün saxlanılıb və şəxsi yoxlama aparılıb.** Şəxsi yoxlama zamanı vətəndaşın şalvarının sol cibindəki siqaret qutusunun içərisində gömrük nəzarətindən gizlədilən 1 ədəd sellofan bükümdə ümumi çəkisi 2 qram olan narkotik vasitə - tiryək aşkar edilib. Faktla bağlı araşdırma aparılır.

## Əməliyyat

■ **Saatlı Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi və alqı-satqısı ilə məşğul olan şəxslərə qarşı əməliyyat tədbirləri davam etdirilir.** Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Bərdə regional qrupundan hafta.az-a verilən məlumata görə, Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Saatlı rayon sakini, əvvəllər məhkum edilmiş Adəm Zeynalov öz qardaşına 10 manat müqabilində heroin satarkən saxlanılaraq, Polis Şöbəsinə gətirilib. Şəxsi axtarış zamanı onun üzərindən 1 büküm heroin aşkar edilərək götürülüb. Davam etdirilən tədbirlərlə A. Zeynalovun yaşadığı ünvana baxış keçirilən zaman oradan polietilen torbada təmiz çəkisi 3 kiloqram 570 qram olan qurudulmuş marixuana aşkar edilərək götürülüb. Dindirilmə zamanı o, törətdiyi cinayət əməlini etiraf edib. Faktla bağlı Saatlı RPŞ-də araşdırmalar davam etdirilir.

## Qarət

■ **Biləsuvar rayonunda həkim hədələnərək qarət olunub. Hadisə Biləsuvar rayonu ərazisində fəaliyyət göstərən Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasında baş verib.** Xəstəxananın uşaq həkimi, Cəbrayıl rayonundan olan məcburi köçkün Məmmədov Eldar Babalar oğlu prokurorluğa müraciət edərək bildirib ki, Həsənov Raqib Rafiq oğlu ona hədə-qorxu gələrək, 1 850 manatını alıb. Prokurorluqda zərərçəkmiş və bəzi şahidlərin ifadəsi alınıb, faktla bağlı Cinayət Məcəlləsinin 182-ci(hədə-qorxu ilə tələb etmə) maddəsilə cinayət işi başlanıb.

## Qəza

■ **Bakıda yol qəzası nəticəsində ölən kişinin şəxsiyyəti məlum olub.** Hadisə paytaxtın Yasamal rayonu, M.Həsənov küçəsində baş verib. Həmin yolda hərəkətdə olan "Jeep" markalı avtomobil yolu keçən ortayaşlı kişini vurub. Piyada aldığı xəsarətlərdən hadisə yerində dünyasını dəyişib. Yasamal Rayon Polis İdarəsinin Ciayət Axtarış Şöbəsi və 29-cu polis bölməsi əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində hadisə nəticəsində ölən şəxsin kimliyi məlum olub. Araşdırmalar zamanı həmin şəxsin tüfeyli həyat tərzi keçirən Bakı şəhər sakini, 1962-ci il təvəllüdlü Ramiz Ağaverdiyev olduğu müəyyən edilib.

# Ermənistanda pullar faşistlərin abidələrinin ucaldılmasına xərclənir



## Açılış

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 19-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Nizami rayonunda yerləşən 3 saylı DOST mərkəzinin açılışında iştirak ediblər. Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına və birinci xanıma mərkəzdə yaradılan şərait barədə məlumat verdi.*

Bildirildi ki, Heydər Əliyev prospektində yerləşən 3 saylı DOST mərkəzi paytaxtın Nizami, Suraxanı və Sabunçu rayonlarının sakinlərinə xidmət göstərəcək. Mərkəzdə əhaliyə pensiya, sosial sığorta, sosial müavinət, övladlığa götürmə, əlillik, əmək və məşğulluq, bank, notariat, həmçinin Tibbi Sosial Ekspertiza Komissiyasının xidmətləri göstəriləcək. Burada 130 nəfərdən çox işçi və "Könüllü DOST" proqramı üzrə 50 könüllü çalışacaq. Mərkəz gün ərzində 500, il ərzində isə ümumilikdə 150 mindən artıq vətəndaş qəbul edə biləcək.

Dövlətimizin başçısına və birinci xanıma 2020-ci ilin əvvəlindən indiyədək sosial sahədə əldə olunan uğurlar, pandemiya ilə əlaqədar məşğulluğa və sosial rifaha dəstək tədbirləri, elektron sistemlər üzərindən göstərilən proaktiv xidmətlər, şəhid ailələrinin və müharibə əlillərinin mənzil və avtomobil təminatı, günərzi qayğı, icma əsaslı sosial reabilitasiya və yardım mərkəzləri, habelə DOST agentliyinin regional və beynəlxalq səviyyədə əldə etdiyi nailiyyətlər barədə də məlumatlar verildi. Ölkəmizdə əlilliyi olan şəxslər tərəfindən hazırlanan əl işləri nümayiş etdirildi.

Yeni istifadəyə verilən DOST mərkəzi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verdi:

*- Cənab Prezident, xoş gördük Sizi.*

- Salam.

*- Azərbaycanda bu gün həyata keçirilən sosial siyasətin tərkib hissələrindən biri də DOST mərkəzləridir. Bu gün yeni DOST mərkəzinin açılışında iştirak etdiniz. Ümumiyyətlə, Siz DOST mərkəzlərinin açılışını necə qiymətləndirirsiniz?*

- Bu, çox gözəl sosial təşəbbüsdür. Bildiyiniz kimi, Azərbaycan bu sahədə də liderlik göstərir və DOST mərkəzlərinin fəaliyyətə başlaması sosial sahədə görülən işlərin, aparılan islahatların əyani təzahürüdür. Artıq üçüncü mərkəz açılır və ilk açılan iki mərkəzin fəaliyyəti də çox uğurludur. Vətəndaşların bəyənmə əmsalı 96 faizə çatıbdır. Burada göstərilən xidmətlər, əlbəttə, sosial təminat sahəsində böyük bir yenilikdir və təsadüfi deyil ki, artıq bir neçə ölkə bu təcrübə ilə bağlı bizə müraciət edib və Azərbaycan öz təcrübəsini bölüşməyə hazırdır. Bütövlükdə 30-dan çox mərkəzin fəaliyyətə başlaması nəzərdə tutulur. Ümid edirəm ki, yaxın bir neçə il ərzində Bakıda və bütün ölkə üzrə DOST mərkəzləri fəaliyyətə başlayacaq. Eyni zamanda, burada iş yerləri yaradılır. Mənə verilən məlumata görə, bu DOST mərkəzində 130-dan çox iş yeri yaradılır və o cümlədən könüllülər də işlərə cəlb olunur.

ardı səh. 2



# "Nəsimi" bazarı sökülür?

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarına uyğun olaraq Nəsimi rayonunda sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, mövcud şəhərsalma normalarına cavab verməyən, şəhərin ümumi görünüşünə xələl gətirən yaşayış binalarının, sosial və digər qeyri-yaşayış obyektlərinin sökülərək yenidənqurulması, yeni yaşayış binalarının inşa edilməsi layihələri çərçivəsində Nəsimi rayonu, F.Qasımzadə, M.Qaşqay, ak.M.Mirqasımov küçələrinin və Azadlıq prospektinin əhatə etdiyi məhəllədə yeni yaşayış binalarının tikintisi "Avrasiya Construction" Məhdud Məsuliyyətli Cəmiyyətinə həvalə edilmişdir.** Bu açıqlama ilə Nəsimi Rayon İcra Hakimiyyəti çıxış edib. Hafta.az-ın məlumatına görə, açıqlamada bildirilir ki, şəhərsalma prinsiplərinə cavab verməyən yaşayış və qeyri-yaşayış sahələrindən sakinlərin köçürülməsi, köçürülmə ilə əlaqədar həmin sakinlərə istifadələrində (mülkiyyətində) olan sahədən 15-30% artıq olmaqla həmin ərazidə yeni inşa ediləcək yaşayış binasında təmirli abad yaşayış sahələrinin (mənzillərin) verilməsi və digər xidmətlərin göstərilməsi öhdəliyi Rayon İcra Hakimiyyəti tərəfindən MMC-nin üzərinə qoyulmuşdur.

Həmçinin, sözügedən ərazidə yerləşən qeyri-yaşayış sahələrində, o cümlədən "Nəsimi bazarı" ATSC-ə məxsus ərazidə əhaliyə göstərilən xidmətlərin daha yüksək səviyyədə təşkili üçün tərəflər arasında ("Avrasiya Construction" MMC və "Nəsimi bazarı" ATSC) qarşılıqlı razılaşma əsasında işlərin aparılması nəzərdə tutulur. Əlavə olaraq "Nəsimi bazarı" ATSC-nin nümayəndəsinin məlumatına əsasən bildirirlik ki, ATSC-nin bazarın içərisində icarəyə verdiyi piştaxtalar hazırda günün tələblərinə cavab vermədiyi üçün yenidənqurulması məqsədilə səhmdar cəmiyyət tərəfindən sökülür.

GÜNDƏM

# Dərsliklər şagirdlərdən hansı qaydada toplanacaq?



**Bir neçə aydır ki, koronavirus pandemiyasına görə tədris dayandırılıb. Proses sentyabra qədər davam edəcək. Buna baxmayaraq, orta məktəbdə dərsliklər şagirdlərdən yığılmayıb.**

Maraqlıdır, şagirdlərdən dərsliklərin yığılması hansı qaydada aparılacaq?i Valideynləri narahat edən məsələ həmin dərsliklərdən koronavirusa yoluxma ehtimalı ola biləcəyidir. Yeni tədris ilində həmin dərsliklər şagirdlərə veriləcəkmi, yoxsa yeni nəşrlər olacaq?

■ **Bu barədə hafta.az-a Təhsil Nazirliyindən bildirilib ki, dərsliklərin şagirdlərdən hansı qaydada geri yığılacağı xüsusi karantin rejiminin tələblərindən asılı olaraq dəyişə bilər:** "Odur ki, bu qaydalarla bağlı konkret fikir bildirmək hələ mümkün deyildir. Amma onu da bildirək ki, dövlət ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarında, eləcə də I, V və IX siniflərində təhsil alan bütün şagirdlər yeni dərsliklərlə təmin olunacaqdır. II-IV, VI-VIII, X-XI sinif şagirdləri isə əvvəlki illərdə istifadədə olan dərsliklərlə təmin olunacaqlar. Tədqiqatlar göstərir ki, COVID-19 virusu səthlər üzərində bir neçə saatdan bir neçə günə qədər sağ qala bilir. Qeyd edilən siniflər üzrə dərsliklərin şagirdlərdən geri yığılması və digər şagirdlərə tədrisdə istifadə üçün verilməsi arasında kifayət qədər müddət olacağını nəzərə alaraq onlardan hər hansı yoluxmanın baş verməsi mümkün olmayacaqdır.

Qeyd edək ki, dərsliklərin şagirdlərdən geri yığılması və yenidən paylanması prosesi bütün təhlükəsizlik və sanitar-epidemioloji normalara, eləcə də Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinə əməl edilməklə həyata keçiriləcəkdir".

*Ruzbeh*

GÜNÜN SİTATI

"

*Azərbaycan pandemiya dövründə 1,7 milyon nəfərədək özəl sektorda çalışan vətəndaşlarımıza birbaşa maliyyə dəstəyi göstərdi*

"



**Vüqar Bayramov,**
Milli Məclisin deputatı

Günün fotosu...



Cənubi Afrikada ərzaq növbəsi...

"HƏFTƏ İÇİ"ndən



## Nəsirəddin Tusi küçəsində abadlıq və təmizlik işlərinə fikir verilmir

Ərazilərdə abadlıq və təmizlik işlərinə ciddi fikir verilmir

bax səh. 7



## Beynəlxalq Biomüxtəliflik Günü

Hazırda dünyada 15 milyondan çox canlı növ mövcud olsa da, hər gün onların yüzə yaxını məhv olur

bax səh. 6

# Müdafiə naziri cəbhə bölgəsindədir



**Genişmiqyaslı əməliyyat-taktiki təlimləri çərçivəsində cəbhə bölgəsində olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti səhra şəraitində ərazidə açılmış komanda idarəetmə məntəqəsində olublar.**

Hafta.az Müdafiə Nazirliyinin saytına istinadən xəbər verir ki, qoşunların döyüş fəaliyyətinin təşkilini yoxladıqdan sonra Müdafiə naziri əməliyyatların planlaşdırılması, təminat, döyüşü idarəetmə, artilleriya, kəşfiyyat, hava hücumundan müdafiə və digər qoşun növlərinin idarəetmə qruplarına baş çəkib, idarəetmə orqanlarının fəaliyyəti ilə bağlı müvafiq göstərişlər verib. Sonra Müdafiə Nazirliyinin rəhbərliyi cəbhəboyu zonada yerləşən hərbi hissələrdəki hərbi texnikanın döyüş qabiliyyətini yoxlayıb.

General-polkovnik Z.Həsənov Ermənistan silahlı qüvvələrinin üzbəüz yerləşən mövqelərini müşahidə edib və müvafiq tapşırıqlar verib. Ön xətdə döyüş növbəsi çəkən hərbi qulluqçuların xidməti məişət şəraiti ilə maraqlanan Müdafiə naziri onlarla çay süfrəsi arxasında söhbət aparıb.

# FHN tərəfindən dezinfeksiya işləri davam etdirilir




**Azərbaycan Respublikası ərazisində koronavirusun (COVID-19) geniş yayılma təhlükəsinin qarşısının alınması məqsədilə ölkə başçısı İlham Əliyevin göstərişi əsasında kompleks effektli tədbirlər həyata keçirilir.**

Bu tədbirlər çərçivəsində, Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərarlara uyğun olaraq, Fövqəladə Hallar Nazirliyi koronavirus infeksiyasına yoluxma hallarının qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə aidiyyəti üzrə fəaliyyətini davam etdirir. Məlumat verildiyi kimi, mart ayının 28-dən etibarən FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələri tərəfindən Operativ Qərargahın Bakı şəhəri üzrə müəyyən etdiyi obyektlərdə dezinfeksiya tədbirləri yerinə yetirilir, mütəmadi olaraq müxtəlif məkanlar xüsusi məhlulla dezinfeksiya edilir. Dezinfeksiya işlərinin davam etdirilməsi nəzərdə tutulur.

# İspaniya XİN başçısı Azərbaycana təşəkkür edib

**Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarovun İspaniya Krallığının Xarici İşlər naziri Arança Qonzalez Laya ilə telefon söhbəti baş tutub.** Xarici İşlər Nazirliyindən (XİN) hafta.az-a verilən məlumata görə, Arança Qonzalez Laya mövcud qlobal pandemiya ilə mübarizə çərçivəsində birgə səylərin və həmrəyliyin əhəmiyyətini vurğulayıb. İspaniyalı nazir Azərbaycanın Heydər Əliyev Mərkəzinin binasının üzərində İspaniya bayrağının işıqlandırılması ilə verdiyi həmrəylik ismarışına görə öz təşəkkürünü bildirib. Nazir həmçinin qlobal sağlamlıq böhranına qarşı birgə mübarizəyə dəstək ifadə edən məktubuna görə Azərbaycanlı həmkarına təşəkkürünü ifadə edib.

Nazirlər iki ölkə arasında siyasi əlaqələrin yüksək səviyyədə inkişaf etdiyini qeyd ediblər. Ölkələrin beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən BMT Nizamnaməsi və Helsinki Yekun Aktında əks olunmuş dövlətlərin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə hörmət, sərhədlərin toxunulmazlığı prinsiplərinə uyğun olaraq BMT çərçivəsində əməkdaşlığını vurğulayıblar.

İki ölkə arasında strateji tərəfdaşlığa dair bəyannamənin yaxın gələcəkdə imzalanması və bu xüsusda yüksək səviyyəli səfərlərin əhəmiyyəti qeyd olunub. Tərəflər, habelə ölkələr arasındakı müqavilə hüquq bazasının möhkəmləndirilməsi məsələlərini müzakirə ediblər. Nazirlər iki ölkə arasında iqtisadi və enerji sahələrində əməkdaşlığın gücləndirilməsi, habelə mədəni əlaqələrin genişləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıblar. Tərəflər, pandemiyadan sonra qarşılıqlı səfərlərin həyata keçirilməsi üçün dəvətlərini səsləndiriblər.

HƏFTƏ İÇİ
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur. Qəzet həftənin 5 günü çıxır.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2505
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Ermənistanda pullar faşistlərin abidələrinin ucaldılmasına xərclənir

əvvəli 1-ci səhifədə

Bütövlükdə 130-dan çox xidmətin göstərilməsi demək olar ki, sosial sahənin bütün xidmətlərini ehtiva edir. Beləliklə, bu mərkəzlərin fəaliyyəti həm insanlara rahatlıq verəcək, eyni zamanda, şəffaflıq istiqamətində önəmli addım artıq özünü doğruldub. Eyni zamanda, burada tətbiq olunan innovasiyalar bizim gələcəyə baxışımızla tam uzlaşır. Çünki innovativ inkişaf bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Əlbəttə, DOST mərkəzləri məhz bu innovasiyalar əsasında fəaliyyət göstərir və gələcəkdə bu istiqamətdə əlavə addımların atılması da nəzərdə tutulur.

***- Cənab Prezident, açılışında iştirak etdiyiniz DOST mərkəzində digər mərkəzlərdə olduğu kimi, əməkdaşların mütləq əksəriyyəti gənclərdir. Siz tez-tez çıxışlarınızda gənclərin Azərbaycanın inkişafındakı rolunu xüsusi vurğulayırsınız. Ümumiyyətlə, Azərbaycanın bugünkü inkişafında gənclərin rolunu necə qiymətləndirirsiniz?***

- Mən gənclərin rolunu həmişə çox yüksək qiymətləndirmişəm. Bu gün də Azərbaycan gəncləri ölkəmizin uğurlu inkişafında öz fəal rolunu oynayırlar. Deyə bilərəm ki, gənclər cəmiyyətimizin ən fəal təbəqəsidir və bu gün gənclərə geniş imkanlar yaradılır. Gənclər önəmli vəzifələrə təyin olunur: nazir, icra başçısı vəzifələrinə. Eyni zamanda, Milli Məclisdə kifayət qədər gənclərimiz var və DOST mərkəzində çalışan insanların demək olar ki, hamısı gənclərdir. Məhz innovasiyaya olan maraq, gənclərin fəallığı, onların müasir bilikləri imkan verdi ki, Azərbaycan öz daxili intellektual resursları hesabına belə mərkəzləri yaratsın və eyni zamanda, dediyim kimi, digər ölkələrlə bu təcrübəni bölüşsün. Ona görə gənclərlə çoxsaylı görüşlərim əsnasında mən onları həmişə biliklərə cəlb edirəm, dəvət edirəm ki, yaxşı oxusunlar, yaxşı peşəkar olsunlar və öz fəaliyyətləri ilə ölkəmizin inkişafına daha böyük xidmət göstərsinlər. Şadam ki, bu gün bizim gənclərimiz ən yüksək meyarlara cavab verirlər - bilik, peşəkarlıq, yenilik, müasirlik baxımından. Eyni zamanda, onu da bildirməliyəm ki, gənclər xoşagəlməz hallara qarşı da mübarizədə bizə böyük dəstək olurlar. Bütövlükdə gələcəkdə Azərbaycanı idarə edəcək insanlar bugünkü gənclərdir. Ona görə onların bilikləri və eyni zamanda, vətənpərvərliyi bizim müstəqilliyimizi daim gücləndirəcək və ölkəmizin uzun illər, onilliklər bundan sonra dayanıqlı inkişafını təmin edəcək.

***- Cənab Prezident, son illərdə Azərbaycanda əhalinin sosial təminatı ilə bağlı dünyanın çox nadir ölkələrində rast gəlinən kompleks tədbirlər həyata keçirilir. Bu sahədə icra olunan layihələr barədə nə deyə bilərsiniz?***

- Sosial sahə daim prioritet sahə olub və mənim əvvəlki illərdə də çıxışlarımda daim bu məsələyə böyük diqqət yetirilib. Xüsusilə son müddət ərzində - keçən il və bu il sosial sahə daha da böyük prioritet kimi gündəlikdə mövcuddur. Təsadüfi deyil ki, ötən il müstəqillik dövründə ən geniş sosial paket təqdim olundu və uğurla icra edildi. Bu sosial paketin əhatə dairəsi çox geniş idi - 4 milyon 200 min insan dövlət tərəfindən sosial paketlə təmin edildi. Bunun içərisində minimum əməkhaqqının təxminən 2 dəfə, minimum pensiyanın 70 faizdən çox qaldırılması məsələləri var idi. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə bu gün Azərbaycan MDB məkanında lider dövlətdir. Müavinətlər qaldırıldı - bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 2 dəfə. Problemli kreditlərlə bağlı məsələ öz həllini tapdı. Yəni, biz bu məqsədlər üçün milyardlarla manat ayırdıq və dediyim kimi, 4,2 milyon insanın güzəranı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı.

Bu ilin əvvəlindən bu meyillər daha da güclənibdir. Minimum əməkhaqqı və orta əməkhaqqının, orta pensiyanın artırılması göz qabağındadır. Nəzərə alsaq ki, manatın məzənnəsi də sabitdir, insanların real gəlirləri artır, inflyasiya aşağı səviyyədədir. Ona görə bu sahədə bu il görülən işlər keçən il görülmüş işlərin məntiqi davamıdır. Bu ilin xüsusiyyəti ondadır ki, biz indi pandemiya dövründə yaşayırıq və pandemiyaya bizim cavabımız çoxşaxəli olmuşdur. O cümlədən sosial təminatla bağlı çox ciddi, operativ və məqsədə hesablanmış addımlar atılmışdır. Artıq sirr deyil ki, dövlət




sektorunda fəaliyyət göstərən 900 min insanın əməkhaqqı tam ödənilib, özəl sektorda təxminən 700 min insanın əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənildi. Nəzərə alsaq ki, bu sektorda fəaliyyət göstərən insanlar işsiz qalmışdılar, işsiz vətəndaşların, aztəminatlı təbəqənin, o cümlədən qeyri-formal məşğulluqda fəaliyyət göstərən insanların sosial təminatı təşkil edildi, hər birinə 190 manat vəsait ayrıldı. Bu kateqoriyadan olan insanların sayı az deyil, 600 mindir. Bu işlərin hamısı, əlbəttə ki, böyük maliyyə resursları tələb edir. Buna ünvanlı sosial yardım proqramını əlavə etsək, bu proqramla əhatə olunan insanların sayı kəskin artır. Hazırda 80 min ailə bu proqramla əhatə olunur və orta hesabla hər bir ailəyə hər ay 220 manatdan çox vəsait ödənilir.

Eyni zamanda, ödənişli ictimai iş yerlərinin - 90 min iş yerinin açılması nəzərdə tutulur. Özünüməşğulluq proqramında 12 min insan əhatə olunur. Artıq biz bu proqramın bir hissəsini Dünya Bankı ilə birlikdə icra edirik. Yəni, bütövlükdə bu sahəyə ayrılan diqqəti və vəsaiti nəzərə alsaq, görərik ki, bu gün bizim üçün bu, prioritetdir və bu, belə də olmalıdır. Çünki pandemiyadan bütün dünya əziyyət çəkir, bütün ölkələr böyük çətinliklərlə üzləşiblər. İnkişaf etmiş ölkələrin bəzilərində iqtisadi tənəzzül 7-10 faiz səviyyəsindədir. Bu, hələ ilkin rəqəmlərdir. Azərbaycanda maliyyə sabitliyini qorumaq üçün bütün lazımi tədbirlər görüldü. Hər kəs bilməlidir ki, əgər maliyyə sabitliyi pozularsa, onda sosial proqramların icrasına da bizim imkanımız çatmayacaq.

Mən ilin əvvəlində və pandemiyanın artıq alovlanan dövründə demişəm ki, bir dənə də olsun sosial proqram ixtisar edilməyəcək və biz bunu təmin edirik. Eyni zamanda, sosial infrastruktur layihələrinin heç biri ixtisar olunmayıb. Ona görə bu sahəyə göstərilən diqqət və əməli-praktiki addımlar bir daha bizim siyasətimizin mahiyyətini göstərir. Bir də onu göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır.

***- Cənab Prezident, informasiya-kommunikasiya texnologiyalarının inkişafı və innovasiyanın tətbiqi Sizin fəaliyyətinizin prioritet istiqamətlərindən biridir. Bu yaxınlarda CISCO şirkətinin rəhbərliyi ilə görüşdə də Sizin liderliyiniz və Azərbaycanda həyata keçirilən bu işlər çox yüksək qiymətləndirildi. İstərdik ki, bununla bağlı fikirlərinizi bölüşəsiniz.***

- Bilirsiniz, bu sahə bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə Azərbaycanda geniş vüsət almağa başlamışdır. Xatırlayıram, biz kosmik sənayenin yaradılması ilə məşğul olmağa başlayanda bəziləri təəccüb edirdi, bəziləri düşünürdü ki, Azərbaycan o qədər də böyük ölkə deyil, - kosmik klub dünya miqyasında çox məhdud bir klubdur, - və Azərbaycan üçün orada özünə yer tapmaq çətin olacaq. Ancaq həyat göstərdi ki, biz düzgün yoldaydıq. Çünki kosmik sənayenin yaradılması, üç peykin orbitə çıxarılması təkcə iqtisadi və digər maraqlarımızı təmin etmir, eyni zamanda, bu, kadrların hazırlanması, gənc kadrların yeni texnologiyalara sahib çıxması baxımından da çox önəmli idi. Kadr hazırlığı olmadan müasir texnologiyalar heç bir ölkədə inkişaf edə bilməz. Ona görə biz həm dövlət resurslarımızı bu istiqamətə cəlb etdik və çox düzgün proqram tərtib etdik, həm də kadr hazırlığı ilə əlaqədar əməli-praktiki addımlara start verdik. Çünki bax, bu gözəl DOST mərkəzinin timsalında görürük, əgər burada peşəkar kadr olmasa, bu mərkəz fəaliyyət göstərə bilməz. Azərbaycan əksər ölkələr kimi, texnologiyaları idxal edir. Ancaq bu texnologiyaları işlətmək, onları mənimsəmək, bu texnologiyalar əsasında yeni intellektual məhsul yaratmaq artıq kadr peşəkarlığından, kadr hazırlığından bilavasitə asılıdır. Ona görə informasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı bütün addımlarımız düzgün idi və CISCO şirkətinin rəhbərləri ilə videokonfrans çərçivəsində keçirdiyim görüş də bunu bir daha göstərdi. Biz təkcə CISCO şirkəti ilə əməkdaşlıq etmirik, biz demək olar ki, dünyanın informasiya-kommunikasiya texnologiyaları sahəsində fəaliyyət göstərən bütün aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edirik. CISCO şirkəti ilə biz, deyə bilərəm ki, artıq strateji tərəfdaşlıq əlaqələrinə yaxınlaşırıq.

Əlbəttə ki, onların təklif etdiyi intellektual məhsul bizim gələcək inkişafımıza çox lazımdır. Misal üçün, biz hazırda ağıllı şəhər - "Smart City" layihəsi üzərində işləyirik. Bu layihənin ilkin təzahürləri artıq görünməkdədir. Biz daha uzağa gedərək artıq "Smart Nation" - yəni, "Ağıllı ölkə" proqramı üzərində işləməyə başlamışıq. Ölkəmizin rəqəmsallaşdırılması, informasiya texnologiyalarının bütün sahələrdə tətbiq edilməsi bizim prioritet sahəmizdir.

Pandemiya dövründə, özünütəcrid şəraitində informasiya texnologiyaları olmadan iş görmək mümkün deyil. Misal üçün, mənim görüşlərim, videokonfrans şəklində keçirdiyim Zirvə görüşləri müasir texnologiyalar olmadan mümkün deyil. Ona görə hazırda həm iqtisadi sahədə, həm təhsil, səhiyyə, kənd təsərrüfatı sahələrində və digər sahələrdə, o cümlədən bizim su resurslarının nəzarəti, su balansının formalaşması və itkilərin azaldılması istiqamətində də məsələ qaldırıldı. Ona görə bu sahə, hər kəs bunu bilməlidir, gələcəyə atılan addımdır. Biz gecikə bilmərik, yubana bilmərik, geciksək uduzarıq. Ona görə bütün resurslarımızı, o cümlədən maliyyə, intellektual və kadr resurslarımızı səfərbər etmişik. Əminəm ki, gələcək illərdə Azərbaycan informasiya-kommunikasiya texnologiyaları sahəsində liderlik mövqelərini daha da möhkəmləndirəcək.

***- Cənab Prezident, şəhid ailələrinin sosial məsələlərinin həlli, onların mənzil-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində ölkəmizdə kompleks şəkildə tədbirlər həyata keçirildi. İstərdik bu barədə fikirlərinizi bölüşəsiniz.***

- Bu, daim diqqət mərkəzində olan məsələdir. Bu günə qədər 7600 şəhid ailəsi dövlət tərəfindən evlərlə, mənzillərlə təmin edilibdir. Bu il şəhid ailələrinə verilən mənzillərin, evlərin sayı rekord həddə çatıb -1500 şəhid ailəsinə evlər, mənzillər veriləcək və beləliklə, növbədə duran şəhid ailələrinin sayı 2 mindən az olacaqdır. Ümid edirəm ki, maksimum iki il ərzində bütün şəhid ailələri dövlət tərəfindən evlərlə təmin ediləcəkdir. Bununla paralel olaraq, biz minik maşınları da veririk - həm şəhid ailələrinə, həm də Qarabağ qazilərinə. Bu günə qədər 6 mindən çox minik maşını verilib, bu il də 400 maşının verilməsi nəzərdə tutulur. Deyə bilərəm ki, bu sahədə də Azərbaycan liderlik göstərir. Çünki dünyanın bir çox yerlərində müharibələr olub, münaqişələr, insan itkisi olub. Mən, əlbəttə, Azərbaycanı heç bir ölkə ilə müqayisə etmək istəməzdim, ancaq həqiqət ondan ibarətdir ki, Azərbaycanda müharibədən əziyyət çəkmiş, öz yaxınlarını itirmiş ailələrin dövlət tərəfindən dəstəklənməsi, hesab edirəm, ən yüksək səviyyədədir.

İndi bir daha demək istəyirəm ki, heç kimlə müqayisə aparmaq istəmirəm, amma baxın, Ermənistanda müharibədə ölənlər olubdur. Onlara mənzil verilir? Onlara avtomobil verilir? Yox. Orada pullar faşistlərin abidələrinin ucaldılmasına xərclənir. Amma biz bütün bu işləri görürük və görməliyik.

Bu, bizim mənəvi borcumuzdur. Mənim şəhid ailələri ilə çoxsaylı görüşlərim, əlbəttə ki, cəmiyyət üçün də, şəhid ailələri üçün də çox önəmlidir. Biz şəhidlərin ruhu qarşısında baş əyirik və öz işimizi təkcə sözlə yox, əməllə təsdiq etməliyik. Ona görə artıq 7600 şəhid ailəsinə verilən evlər, - bu il onların sayı 9 minə çatacaq,- bizim əməli işlərimizin gözəl nəticəsidir.

***- Cənab Prezident, Azərbaycanda koronavirusun qarşısının alınması ilə bağlı görülən işlər və həyata keçiriləcək tədbirlər barədə nə deyə bilərsiniz?***

- Koronavirusla bağlı işlər əvvəldən Azərbaycanda çox düzgün istiqamətdə aparıldı və bunu həm Azərbaycan xalqı görür və təqdir edir, həm də beynəlxalq təşkilatlar. Bu günə qədər mən vətəndaşlardan gündə yüzlərlə məktub alıram. Yəni, pandemiyanın ilk günlərindən minlərlə məktub almışam və bütün bu məktublar təşəkkür xarakterli məktublardır. Çünki doğrudan da qabaqlayıcı tədbirlərin görülməsi bizi böyük bəladan xilas etdi. Yenə də hər şey müqayisədə ölçülür. Əhalisinin sayı Azərbaycanla eyni olan inkişaf etmiş ölkələrdə vəziyyət necədir, Azərbaycanda vəziyyət necədir? O ölkələrin bəzilərində bu günə qədər 10 minə yaxın insan vəfat etdi. Azərbaycanda vəfat edənlərin sayı kifayət qədər azdır. Eyni zamanda, qabaqlayıcı, məhdudlaşdırıcı tədbirlər imkan verdi ki, biz pandemiyanın geniş vüsət almasının qarşısını alaq və buna nail olduq. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı bizim bu sahədə gördüyümüz işləri yüksək qiymətləndirir və Azərbaycanı nümunəvi ölkə adlandırır. Bu, bizim gördüyümüz işlərə verilən böyük qiymətdir. Mən bilmirəm başqa bir ölkəyə belə bir ad verilib, yoxsa yox. Bu, doğrudan da görülmüş işlərin məntiqi nəticəsidir. Çünki bəri başdan bizim əsas məqsədimiz xalqımızı, vətəndaşlarımızı bu xəstəlikdən qorumaq idi. Bütün digər iqtisadi məsələlər, iqtisadiyyatın tənəzzülə uğraması, iqtisadiyyatda yarana biləcək problemlər arxa plana keçdi. Halbuki biz bu məsələlərlə də ciddi məşğul olmuşuq. Amma birinci məsələ insanların sağlamlığı, ikinci məsələ insanların sosial təminatı idi ki, biz hər ikisini də təşkil etdik.

Deyə bilərəm ki, səhiyyə sistemimizi qısa müddət ərzində yenidən qura bildik. Mən burada xüsusilə İcbari Tibbi Sığorta Agentliyinin və TƏBİB-in fəaliyyətini yüksək qiymətləndirirəm. Orada da fəaliyyət göstərənlərin mütləq əksəriyyəti gənclərdir və burada da gənclər göstərdilər ki, nəyə qadirdirlər. Çünki belə bir çətin şəraitdə heç bir ölkənin səhiyyə sistemi buna hazır deyildi. Belə bir çətin şəraitdə bütün təşkilati işləri görmək doğrudan da böyük nailiyyətdir. Xəstəxanaları müəyyən etmək, logistika işlərini təmin etmək, xəstələri regionlar üzrə bölmək, karantin rejimində saxlanılanların təminatını təşkil etmək, onlar üçün bütün bu təşkilati-logistik məsələləri həll etmək, xaricdən vətəndaşları təxliyə etmək - biz bütün bunları Operativ Qərargah çərçivəsində, o cümlədən həkimlərin və TƏBİB-in fəal iştirakı ilə təmin edə bilmişik. Ona görə biz artıq aprelin sonunda gördük ki, üç həftə ərzində dinamika müsbətdir, yoluxanların sayı sağalanların sayından azdır və biz yumşalma tədbirlərinə keçdik. Əfsuslar olsun ki, yumşalma tədbirləri yoluxanların sayına mənfi təsir göstərmişdir. Ancaq bu gün vəziyyət tam nəzarətdədir və bütün ölkələr artıq açılır. Hətta pandemiyanın geniş vüsət aldığı ölkələr də açılır və biz də yavaş-yavaş açılırıq. Amma vəziyyəti tam nəzarətdə saxlayırıq.

Bizdə hazırda 20-dən çox xəstəxana sırf koronavirusla bağlı fəaliyyət göstərir, orada ancaq koronavirus xəstələri müalicə olunur - hazırda 19 xəstəxanada. Çünki indi bəzi xəstəxanalarda artıq xəstə qalmır. Ancaq 20-dən çox xəstəxana hazırdır, modul tipli 10 xəstəxananın inşası başlamışdır, birinin açılışında mən iştirak etmişəm. Bu da bizə əlavə 2000 yataq verəcəkdir. Bütün tibbi avadanlıq təmin edilib, süni tənəffüs aparatları gətizdirilib, reanimasiyada kifayət qədər boş yerlərimiz var, yataqlar kifayət qədərdir, karantində saxlanılanların sayı xaricdən gələnlərin sayı ilə birbaşa əlaqəlidir. Çünki xaricdən təxliyə edilən vətəndaşları biz iki həftə karantində saxlayırıq. Deməliyəm ki, 20 mindən çox Azərbaycan vətəndaşı mütəşəkkil qaydada xaricdən təxliyə edilib. Biz bu işləri kortəbii görə bilmərik. Mütəşəkkil qaydada, qrafik üzrə, ölkələr üzrə bölgü aparılıbdır: hansı ölkədən nə vaxt, nə qədər Azərbaycan vətəndaşı gələcək. Bu işlər bu qaydada davam etdiriləcək. Ən çox təxliyə edilmiş vətəndaşlarımız Rusiyadan gəlib. Bu günə qədər Rusiyadan 6500 Azərbaycan vətəndaşı gəlib və bu proses davam etdirilir, ancaq dediyim kimi, mütəşəkkil qaydada. Hər kəs öz adını qeydiyyata salmalıdır, xüsusi portal da - "Evə gedirəm" mövcuddur. Ona görə təxliyə işləri də mütəşəkkil qaydada aparılacaq.

Karantin şəraiti çox gözəldir və mən karantində qalanlardan da çoxsaylı məktublar alıram, onları dörd-beş ulduzlu otellərdə saxlayırıq. Biz özümüz indi tibbi maska, kombinezon, dezinfeksiya vasitələri istehsalına başlamışıq. Ona görə bu kompleks tədbirlər, əlbəttə ki, bizi böyük bəladan qoruya bildi. İndiki şəraitdə ki, artıq yumşalma prosesi gedir, əsas amil vətəndaşların məsuliyyəti olacaq. Mən bir daha demək istəyirəm ki, vətəndaşlar bu məsuliyyəti dərk etsinlər. Pandemiya başa çatmayıb, virus qeyb olmayıb, bu virus dolaşacaq. Ona görə hər kəs özünü, öz yaxınlarını qorumalıdır, öz məsuliyyətini hiss etməlidir və nizam-intizama da əməl etməlidir.

***- Cənab Prezident, belə bir çətin şəraitdə əhalinin sosial təminatı, pandemiyanın törətdiyi iqtisadi fəsadların aradan qaldırılması ilə yanaşı, Azərbaycan bir sıra xarici ölkələrə yardım da edir. İstərdik bu məsələ ilə bağlı da fikirlərinizi bildirəsiniz.***

- Mən hesab edirəm ki, bu, bizim apardığımız siyasətin tərkib hissəsidir. Çünki xarici siyasətə gəldikdə, biz həmişə əməkdaşlığa üstünlük vermişik və bunun faydasını görmüşük. Harada imkanımız olub, əgər imkanımız olubsa, kömək etməyə çalışmışıq və etmişik. Bizim bir neçə önəmli transmilli layihəmiz məhz bu prinsip əsasında qurulub və uğur da məhz bu prinsip əsasında qazanılır. Ona görə xarici siyasətdə qarşılıqlı dəstək sözdə yox, əməldə olmalıdır, həmrəylik əməldə olmalıdır. Biz indi iki təşkilata sədrlik edirik və bu iki təşkilatın Zirvə görüşünü keçirmişik - Türk Şurası və Qoşulmama Hərəkatı və ən yüksək səviyyədə. Qoşulmama Hərəkatının və Türk Şurasının yekun bəyannaməsində Azərbaycanın xüsusi rolu qeyd olundu. Biz hər bir işə çox məsuliyyətlə yanaşırıq və bizim sədrliyimiz formal xarakter daşımamalıdır və daşımır. Ona görə çətin gündə kimin imkanı varsa, kömək etməlidir, həyatda da, siyasətdə də. Bu, bizim, necə deyərlər, adət-ənənələrimizə də uyğundur. Ona görə bu gün bu yardımın göstərilməsi hesab edirəm ki, düzgün addımdır. Bu günə qədər biz 13 ölkəyə yardım göstərmişik və bu haqda ancaq son vaxtlar danışmağa başlamışıq. Biz təyyarələrlə yardımlar göndərmişik, yüzlərlə ton yardım göndərmişik. Azərbaycanda istehsal olunan dezinfeksiya vasitələri, qoruyucu vasitələr və digər əşyalar göndərmişik, amma bunu reklam etməmişik. Bunu mənəvi borc bilərək etmişik, o ölkələrə ki, onlar bizə müraciət edib. Biz bilirik, o ölkələrin maliyyə vəziyyəti imkan vermir ki, onlar lazımi tədbirləri görsün. Əminəm ki, bu yardım bir çox insanın həyatını xilas etdi. Əsas məsələ budur. Beləliklə, 13 ölkəyə artıq yardım göstərilib, o cümlədən üç beynəlxalq təşkilata yardım göstərilibdir. Bu, bir daha bizim məsuliyyətimizi göstərir.

Təsadüfi deyil ki, Azərbaycan dünya miqyasında çox böyük hörmətə və yüksək imicə malik olan ölkədir. Əks təqdirdə, biz səkkiz il bundan əvvəl 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına seçilməzdik. Əks təqdirdə, Qoşulmama Hərəkatının yekdil qərarı ilə, 120 ölkənin qərarı ilə sədr seçilməzdik. Çünki mən demişəm, bu təsisatda bir çox ölkələr cəmləşir ki, bir-biri ilə yola getmir. Amma onların hər biri Azərbaycanı dəstəklədi. Nəyə görə? Çünki biz məsuliyyətli ölkəyik, biz özümüzə hörmət edirik, öz ləyaqətimizi qoruyuruq, tərəfdaşlara da hörmət edirik. Yardım edəndə bunu elə formada edirik ki, bu, yardımı alan üçün də məqbul olsun və öz işimizi bu istiqamətdə davam etdirəcəyik.

Pandemiya dövründə həm insanlar, həm də ölkələr özünün əsl simasını üzə çıxardı. Elə insanlar var ki, pandemiya dövründə onlara əl vermək böyük günah olar. Elə ölkələr var ki, pandemiya dövründə özlərinə qapanıblar və xüsusilə, ilkin mərhələdə bəzi addımlar atıblar və indi yəqin utanırlar. Azərbaycan o ölkələrdəndir ki, həmişə üzüağ, alnıaçıq olub və pandemiya bunu bir daha təsdiqləyib.

***- Cənab Prezident, suallarımızı ətraflı cavablandırdığınız üçün Sizə minnətdarıq, çox sağ olun.***

- Sağ ol, təşəkkür edirəm.

# 26 nəfərin öldüyü Narkoloji Mərkəzin son durumu

***Bu dəfə yolumuzu 2 il əvvəl od tutub-yanan və 26 nəfərin ölümünə səbəb olan Narkoloji Dispanserdən saldıq. Daha doğrusu, Xətai rayonu, Zığ şosesi, 13 ünvanında yerləşən Respublika Narkoloji Mərkəzindən. Xatırlayırsınızsa, həmin vaxt yanğın xəstəxananın daimi yataq xəstələrinin müalicə aldığı 2-ci şöbəsində baş vermişdi. Böyük faciə yaşanmışdı.***



Hafta.az-ın əməkdaşı adıçəkilən məkanda olub. Respublika Narkoloji Mərkəzinin son durumu haqqında məlumatlar əldə etməyə çalışıb.

Əvvəlcə onu qeyd edək ki, bizi səssizliklə boğuşan vahiməli bir məkan qarşıladı. Qapısı bağlı idi, içərisi də səliqəsiz. Heç kim gözə dəymirdi. Nə qarovulçusu, nə də gözətçisi vardı. Daha dolğun müşahidə aparmaq üçün yaxınlıqdakı damın üzərindən tut ağacına, oradan da hasarın üzərinə qalxdıq. İçəriyə boylandıq. Bir-birindən aralı şöbələr olduqca vahiməli görünürdü...

Gördük ki, mərkəzin içərisini ot basıb. Qapıları kilidlənib. Hətta asfaltların üzərindən də dizə qalxan otlar boy verməyə başlayıb.

İçəriyə boylananda, ancaq sınıq pəncərələr, çərçivəsindən çıxmış qapılar, ot basmış səkilər və əhəngləri saralmış ağaclar gözə dəyirdi. Bir də müəyyən bir tərəfdə uçuq-dağıq hasarların qalıqları gözə dəyirdi. İçəri keçməyə icazəmiz olmadığından hasarın üstünə çıxıb şəkillər çəkdik. Buradan iki il əvvəl yanan ikinci korpusun qalıqları görünməsə də, izlərini - yanmış taxta qırıqlarını görmək mümkün idi.

Bir də... mərkəzin damlarının üstündə iri dəftərlər gözə dəyirdi. Vərəqləri açılmışdı. Adlar, soyadlar, tarixlər, təvəllüdlər gözə dəyirdi. Tarixlər isə 2016-2018-ci illərə aid idi. Qənaətimiz və düşüncəmiz ondan ibarətdir ki, çox güman, bunlar mərkəzin xəstələri ilə bağlı qeydiyyat dəftərləridir və lazımsız olduğu üçün bina ilə bərabər yiyəsiz qalıb.



İki il əvvəl deyilirdi ki, yeni bina tikiləcək. Mərkəz də oraya köçürüləcək, amma həmin faciənin üstündən iki il iki ay müddət keçib. Ortada heç nə yoxdur. Hələlik nə yeni mərkəzdən bir xəbər var, nə də ruhi dispanserdən... Amma bu məsələyə bir az sonra yenidən qayıdacağıq.

Mərkəzlə bağlı rəsmi məlumat alacaq kimsə olmadığından, ərazidə yaşayan insanlarla söhbətləşməli olduq. Ağababa adlı sakin deyir ki, mərkəz yanğından iki-üç ay sonra Maştağaya köçürülüb. Hazırda xəstələr orada müalicə alır. Hətta bu ərazidən olan və mərkəzə qeydiyyatlı bir qonşusu da hazırda Maştağadakı şöbədə müalicəsini davam etdirir.

## Bəs buranın aqibəti necə olacaq?

**Sakinlərlə söhbətimiz zamanı onlardan bir neçə istiqamətdə məlumatlar aldıq. Bir qism sakin bildirdi ki, artıq ərazi Səhiyyə Nazirliyinin və ya TƏBİB-in balansında deyil.** Səhiyyə Nazirliyindən bu iddialara cavab əldə edə bilmədik. Bəzi sakinlər isə qeyd etdilər ki, bura artıq özəl mülkiyyətdir. Yəni, başqa bir fiziki şəxsə, daha doğrusu, adını-sanını bilmədikləri iş adamına satılıb. Bəziləri isə deyir ki, keçmiş mərkəz hansısa fiziki şəxsə yox, hüquqi şəxsə icarəyə verilib. Burada dəniz tullantıları məhsulları müəssisəsi açılacaq. "Nə zaman açılacaq?" buna da cavab verən tapılmadı.

"Sözün düzünü uşaq deyər", - atalar belə söyləyib. Təxminən, 12-13 yaşlarında bir uşaq söhbətə qarışdı və bildirdi ki, bura artıq Mühafizə Şirkətinin əməkdaşlarının ixtiyarındadır. Paytaxtda fəaliyyət göstərən mühafizə şirkətlərindən biri burada öz şöbəsini açacaq. Yenə də uşağın yalançısıyıq. Abduləli adlı bu uşaq onu da deyir ki, hazırda əraziyə yalnız bir qarovulçu nəzarət edir: "O da tez-tez gəlmir. Arada-sırada gəlib baş çəkir. Qısa müddət sonra ərazini yoxlayıb gedir. Amma keçən il mühafizəçi geyimində çoxlu kişilər gəlmişdi. Axşamtərəfi idi. Baxdılar, danışdılar, getdilər".

## Niyə Allah ümidinə qalıb?

**Buranın yiyəsiz olduğunu görüncə istər-istəməz ağlımıza gələn ilk sual o oldu ki, nəzarəti zəif olan binadan oğurluq edilməzmi? Həmsöhbət olduğumuz sakinlərdən bunun səbəbini soruşduq.** Bildirdilər ki, buradan vaxtilə 26 meyid çıxıb. Hər kəs üçün qorxulu və vahiməli məkan təsiri bağışlayır. Bir qadın isə əminliklə deyir ki, heç kim oraya oğurluğa getməz:



"Birincisi, oğrular qorxaq olurlar. Onlar belə qorxulu yerə niyə girsinlər ki? Hamı bilir ki, orada ruh var. 26 adamın ruhu dolaşır orada. İkincisi də orada taxta-tuxtadan başqa nə var axı? İçəridə lazımlı olan hər şeyi boşaldıb aparıblar, hətta dəmir çarpayılara qədər aparıb getdilər. Qalan elə bu dörd divarlardır. Onların içində də heç nə yoxdur. Elə hasardan baxanda da görünür, hər şey ortadadır".

## Yerli camaatın "kisəsindən gedən" mərkəz...

**Sakinlər deyirlər ki, bu mərkəz yerli sakinlərin "kisəsindən gedib". Səbəbini də özlərinəməxsus şəkildə izah edirlər. Deyirlər ki, bu ətrafda əhalinin sıxlığının az olmasına baxmayaraq, iki il əvvələ qədər xeyli dükan və mağaza vardı.**

Xırdavat, geyim dükanları, siqaret köşkləri daha çox üstünlük təşkil edirdi. Həmin mağazalar xəstənin yaxınları, mərkəzə gələnlər üçün təşkil edilmişdi, çünki tələbat vardı. Dəhşətli yanğından sonra mərkəz bağlandı və bu məqam mağazalardan, dükanlardan da yan keçmədi. Onların da fəaliyyətini dayandırmasına səbəb oldu. İndi yaxınlıqda "Sadiq market" adlı dükan qalıb və ətrafda yaşayanlar, ancaq oradan gündəlik tələbatlarını ödəməyə çalışırlar.

## Bəs yeni dispanserdən nə xəbər?

**Ərazidə olarkən adının açıqlanmasını istəməyən bir tibb işçisi isə söhbətləşdik. Əvvəllər mərkəzi dispanserdə çalışıb, hətta bir müddət Narkoloji Mərkəzdə də işləyib.** Onun dediklərinə görə, yeni Narkoloji-Ruhi Dispanser yaxın günlərdə istifadəyə veriləcək. Dəqiq tarixini bilmir. Açılışda ölkə rəhbərliyinin də iştirak edəcəyini, bunun üçün də işlərin sürətləndirildiyini vurğulayır.

Bildirir ki, mayın sonu, iyunun əvvəllərində ən müasir tələblərə cavab verəcək yeni Narkoloji-Ruhi Dispanser istifadəyə veriləcək. Həmsöhbətimin sözlərinə görə, yeni Narkoloji-Ruhi Dispanserin, ən geci, iyunun 15-nə kimi açılışının olacağı gözlənilir: "Yeni dispanser Sabunçu rayonu ərazisində, kənd Maştağa deyilən ərazidə tikilir. Tikinti işləri artıq bitib. Dispanser 4 mərtəbəli və 4 korpusdan ibarətdir, 300 çarpayılıqdır. Təzə dispanser ən müasir tələblərə cavab verir. Xaricdən ən bahalı, müasir avadanlıqlar gətirilib".

O da bildirilib ki, hazırda dispanserdə tikinti işləri tam başa çatdırılıb. Texniki işlər həyata keçirilir. Eyni zamanda, binanın içərisində son tamamlama işləri aparılır.

✍ *Tural*

# "Beşinci kolon"un təxribat niyyətləri

**"Əgər ölkədə "beşinci kolon" varsa, ondan yaxşı heç nə gözləmə. Yaxın tarixin və yaşadığımız dövrün acı təcrübəsi məhz bundan ibarətdir". Hafta.az-ın məlumatına görə, bunu Baş Nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov öz "Facebook" səhifəsində qeyd edib.**



**Əli Əhmədov,**
Baş Nazirin müavini,
YAP Sədrinin müavini-İcra katibi

O bildirib ki, heç bir yerdə və heç bir zaman "beşinci kolon" dekorasiya rolunu oynamayıb və oynamır: "Onun yaranmasına və saxlanmasına qoyulan böyük xərclərin qarşılığı beşinci kolonun satışa çıxarmağa vəd verdiyi milli maraqlardır. Elə buna görə də haqqında söhbət etdiyimiz üzdəniraq qruplaşma mövcudluğundan tutmuş sonuncu addımına qədər antimilli mahiyyət kəsb edir. Antimillilik onun mövcudluq forması və həyat fəlsəfəsidir. "Beşinci kolon" müxtəlif adlar altında və formalarda maskalanır. Onun ən geniş yayılmış konspirasiya forması siyasi partiyanın çətiri altında fəaliyyət göstərməsidir. Partiyanın adına "xalq", "millət", "cəbhə" kimi əlavələrin edilməsi müasir konspirasiyanın vacib elementlərindən sayılır.

"Beşinci kolon" Azərbaycanda yeni hadisə deyil. Müəyyən sükunətdən və konspirasiyadan sonra üzə çıxmaq, açıq fəaliyyətə keçmək tapşırıqları aldığı sezilməkdədir. İllərboyu formal da olsa, istifadə etdikləri siyasi müxalifət imicinə görünür daha ehtiyac duymurlar. "Beşinci kolon"un siyasi müxalifət mərhələsindən birbaşa açıq təxibatçı qruplaşma mərhələsinə keçdiyi aydın şəkildə müşahidə olunur".

Ə. Əhmədov nəzərə çatdırıb ki, hər şeyi öz adı ilə çağırmağın vaxtı çatıb: "Azərbaycanda "beşinci kolon" funksiyasını Azərbaycan Xalq Cəbhəsi Partiyası və "Milli Şura" adlanan qurumun icra etdiyi hamıya bəlli olan həqiqətdir. Hər iki qruplaşmanın adında xalq və milli sözlərinin olması yəqin ki, diqqətdən yayınmadı. Maskalanmaq üçün bu iki sözdən daha uğurlusunu düşünmək çətindir. Ancaq hər kəs gözəl bilir ki, birincini xalqla, ikincini isə millətlə bağlayan heç nə yoxdur. Hər iki ifadə yuxarıda adıçəkilən qruplaşmaların antimilli mahiyyətini pərdələmək məqsədinə xidmət göstərir. Təqdim olunan yanaşma kiməsə sərt görünə bilər. Lakin maraqlı xarici qüvvələrin təklif etdiyi xidmətləri məmnuniyyətlə qəbul etmək də daxil olmaqla bütün gücünü qoyub Azərbaycanın nüfuzuna kölgə salmağa, adını ləkələməyə çalışanlara nə ad vermək olar? Hansı ölkənin müxalifəti, əgər o "beşinci kolon" deyilsə, öz dövlətinə, xalqına yuxarıda qeyd etdiyimiz qruplaşmalar qədər ləkə vurmaq, böhtan atmaq yolunu tutub? Hansı ölkənin müxalifəti, əgər o "beşinci kolon" deyilsə, hakimiyyət məsələsini başqa ölkələrdə, yad qüvvələrlə müzakirə edir? Hansı ölkənin müxalifəti, əgər o "beşinci kolon" deyilsə, özünün bütün təbliğatını başqa ölkələrdə, yad qüvvələrin vəsaitləri hesabına yaradılmış təbliğat vasitələri sayəsində həyata keçirir?"

Baş Nazirin müavini qeyd edib ki, son bir neçə ay ərzində "beşinci kolon"un təbliğatında ölkədə iğişaşlar yaratmağa, sabitliyin pozulmasına yönəlmiş birbaşa çağırışlar çoxalıb: "Respublika Baş Prokurorluğunun və Dövlət Təhlükəsizliyi Xidmətinin yaydığı bəyanatdan görünür ki, söhbət tək çağırışlarla bitmir. Onların arxasında ölkədə sabitliyin pozulmasına yönələn təxribatların törədilməsi kimi konkret fəaliyyət və cinayət əməlləri dayanır.

Dünyanın hər yerində olduğu kimi, Azərbaycan dövləti də koronavirus pandemiyası ilə mübarizə aparır. Cəmiyyətin və dövlətin bütün səyləri və imkanları amansız xəstəlikdən insanların qorunmasına səfərbər olunub. Belə bir həssas zamanda beşinci kolonun əlinə sanki fürsət düşüb. Dövlət koronavirusla vuruşur, "beşinci kolon" isə dövlətə qarşı vuruşmaq üçün təxribatçı qruplar hazırlayır. Tarixi təcrübə göstərir ki, ölkədə "beşinci kolon" varsa, ondan hər an təhlükə törəyə bilər və törəyir. Bu tarixi həqiqət Azərbaycanın nümunəsində bir daha təsdiqini tapır. "Beşinci kolon" ayrı-ayrı vaxtlarda ölkəmizdə az problemlər yaratmağa çalışmayıb. İğtişaşlar törətməyə, sabitliyi pozmağa və digər formalarda təxribatlara dəfələrlə cəhdlər göstərib.

Bu çirkin niyyətlərini həyata keçirmək üçün erməni xüsusi orqanları ilə iş birliyinə getmək qədər xəyanətdən belə çəkinməyiblər. Necə deyərlər, Azərbaycana, Azərbaycan dövlətinə qarşı mübarizə aparmaq naminə şeytanın özü ilə əməkdaşlığa razı olublar. Məkrli niyyətlərinə yalnız dövlətin qüdrəti və xalqın müdrikliyi sayəsində nail ola bilməyiblər. Gücləri çatmayıb". Ə. Əhmədov vurğulayıb ki, bütün cəhdlərinin uğursuzluğa düçar olmasına baxmayaraq, "beşinci kolon" əməllərindən əl çəkmək fikrində deyil: "İstədiyinə nail olmağa gücü çatmasa da, təxribatlar törətməyə hər an hazırdır. Cəmiyyətə və xalqa çox lazım olan sabitlik, əmin-amanlıq, insanların təhlükəsizliyi, ölkəmizin dayanıqlı inkişafı naminə beşinci kolonun mövcudluğuna son qoyulması sosial sifarişə, qaçılmaz zərurətə çevrilib. Heç bir ölkə beşinci kolondan fayda görməyib, əksinə, ciddi problemlər yaşayıb. Azərbaycan istisna təşkil etmir. Tarix yalnız keçmişi xatırlamaq üçün deyil. Həm də ibrət dərsi götürmək üçündür".

✍ *Tural*

# Hər hansı xalqda millətçiliyin hər hansı təzahürü qəbuledilməzdir

**Elə məsələlər var ki, onlara münasibətdə güzəştə getmək olmaz: istər faşizm üzərində Böyük Qələbənin 75 illiyinin bütün dünyada qeyd edildiyi günlərdə, istərsə də hər hansı başqa bir gündə.**



"Ölməz alay" aksiyası çərçivəsində ekstremistlər tərəfindən nasist canilərin fotoşəkillərinin yerləşdirilməsi barədə saytlarda yayılan xəbərlər tarixi hadisələrin dəyərləndirilməsində vurğuları qarışdırmağın yolverilməzliyi haqda bir daha düşünməyə vadar edir. Axı hətta faşizmdən ağır itkilər almış bəzi postsovet ölkələrində artıq çoxdan bəri məhz belə hadisələr dövlət siyasəti səviyyəsində baş verir.

■ **Rusiya Dövlət Dumasının deputatı və Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Dmitri Savelyev AZƏRTAC-a müsahibəsində qeyd edib ki, İkinci Dünya müharibəsi haqqında tarixi həqiqətlərə siyasi məqsədlər üçün cinayətkarcasına manipulyasiyalar son 75 ildir davam edir.** Onun sözlərinə görə, Qərb siyasətçiləri faşizm üzərində Qələbədə Sovet İttifaqının rolunu azaldaraq dünyaya öz nöqteyinəzərlərini zorla qəbul etdirmək istəyirlər. Dmitri Savelyevin fikrincə, "tarixin belə "yenidən yazılmasının" məqsədi bütün xalqlarımızı birləşdirən simvolu - Böyük Qələbəni məhv etmək, postsovet məkanı ölkələrini, əsasən də Rusiyanı dünya siyasətinin hüquqsuz köləsinə çevirməkdir. Bizim ölkələrimizin möhkəmlənməsi, onların fasiləsiz inkişafı, əməkdaşlığı, dünyada nüfuzunun artması Qərbdə çoxuna sərf eləmir". Dmitri Savelyev tarixi saxtalaşdırılmaların təhlükəsinin də adını çəkib. Onun sözlərinə görə, siyasi ab-havanın mürəkkəbləşməsi və beynəlxalq əməkdaşlığın parçalanması yeni münaqişələrə səbəb ola bilər. Rusiyalı parlamentari hesab edir ki, sülhün başlıca zəmanəti faşizm üzərində Qələbənin nəyin bahasına başa gəlməsi haqda xatirənin qorunması və onunla bağlı faktları hər hansı şəkildə təhrif etmək cəhdlərinə qarşı daimi mübarizədir.

Dmitri Savelyev belə dəyərlərin dəyişik salınması və Böyük Vətən müharibəsi haqqında həqiqətlərin yeni nəslin gözündə bağışlanmaz dərəcədə saxtalaşdırılmasına nümunə olaraq, Ermənistanda milli qəhrəman dərəcəsinə qaldırılan kollaborasionistlər Njde və Dronun şöhrətləndirilməsini misal çəkib.

Rusiyalı siyasətçi erməni xalqının İkinci Dünya müharibəsi dövründə əbədi qəhrəmanlığını xarakterizə edən bəlağətli rəqəmlər misal gətirib. Faşizmə qarşı mübarizədə 200 mindən artıq erməni həlak olub, 103 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 70 min nəfər orden və medallarla təltif edilib. Lakin bu həqiqi qəhrəmanların təriflənməsi əvəzinə hərbi cani olan Njde nümunə gətirilir! "Ermənistanın müasir siyasi elitası tamamilə bilərəkdən tarixi həqiqəti Qərb "sifarişçilərinin" xeyrinə manipulyasiya edir. Onların ötəri siyasi və iqtisadi mənfəət hərisliyi öz xalqlarının həyatına görə məsuliyyət hissini üstələyir", - deyə Dmitri Savelyev qeyd edib.

Rusiyalı deputat Böyük Qələbənin 75 illiyinə həsr olunan onlayn-konfransda Ararat Mirzoyanın dediyi sözləri də şərh edib. Ermənistan parlamentinin spikeri bəyan etmişdi ki, nasistlərlə Qaregin Njde arasında paralellər yersizdir. Dmitri Savelyev deyir: "Njdenin cinayətlərinin təkzibedilməz sübutları mövcuddur. Buraya həm Qızıl Ordunun arxa cəbhəsində təxribatçılıq işi ilə məşğul olan diversantların hazırlığı, həmçinin Sovet İttifaqına qarşı vuruşan, 1942-ci ildə yaradılmış erməni legionunun yaradılması aiddir. Njde özünün hərbi cinayətlərinə görə layiqincə məhkum edildi və ömrünü həbsxanada başa vurdu. Və bu faşist əlaltısına Ermənistanın hakimiyyət orqanları Yerevanın mərkəzində təmtəraqlı abidə qoyur, üstəlik bizə onun bioqrafiyasını öyrənməyi məsləhət görürlər!".

Savelyev "Sexakronizmi" - Njdenin hazırladığı və təbliğ etdiyi millətçilik ideologiyasını da diqqətdən kənarda qoymayıb. Bu ideologiyaya görə hər bir erməni üçün ali dəyər onun milləti olmalıdır. Dmitri Savelyev nasizmin və ekstremizmin hər hansı formasına kəskin mənfi münasibət bildirib. Rusiyalı siyasətçi deyib: "Ümumi fəlakət anında xalqların birlikdə davam gətirməkdən ötrü faşizmə qarşı birləşdiyi vaxtda Njde nasist Almaniyası ilə əməkdaşlıqdan faydalanmağa çalışırdı. "Ermənistanın ən yaxşı övladı" belədirsə, bu, ölkə üçün rüsvayçılıqdır. Nasizm hər hansı xalqda özünün hər hansı təzahüründə qəbuledilməzdir".

Dövlət Dumasının deputatı Ermənistanın hazırkı hakimiyyət orqanlarının Njdenin qəhrəmanlaşdırılması işində öz sələflərinin kursunu dəstəkləmələrinin mümkün səbəblərini də izah edib. Dmitri Savelyev əminliklə deyib: "Məlumdur ki, bu yaxınlarda baş nazir Nikol Paşinyanın babasının faşist Almaniyasının tərəfdarı olması barədə bəzi sübutlar üzə çıxıb. Bu faktlar ətraflı yoxlama və sənədlərə əsaslanma tələb edir. Amma Paşinyanın KİV-lərdə verilən suallara cavab olaraq susması - bu, artıq ən bəlağətli cavabdır. Erməni siyasətçilərin hansı siyasi və ya şəxsi motivlər irəli sürməsindən asılı olmayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin bu yaxınlarda bir müsahibəsində dediyi çox tutarlı "Ermənistanın hakimiyyəti dəyişə bilər, lakin rejimin mahiyyəti əvvəlki kimi qalacaq" ifadəsi şübhəsizdir.

# Hərbi əməliyyatlar hər an başlaya bilər

**"Dəfələrlə qeyd etmişik ki, artıq ATƏT-in Minsk qrupunun fəaliyyəti iflic vəziyyətinə düşüb. İrəvanda hakimiyyətə kimin gəlməsindən asılı olmayaraq Ermənistanın mövqeyi dəyişmir. Belə olan halda, işğal olunmuş ərazilərin sülh yolu ilə qaytarılmasına ümid sıfıra enib. Burada bir yol qalır, o da müharibə yoludur".**



■ Bunu hafta.az-a açıqlamasında Azərbaycan Ordusunun ehtiyatda olan polkovniki, hərbi ekspert Şair Ramaldanov deyib. Hərbi ekspert bildirib ki, hazırda biz müharibə şəraitindəyik və mövcud durum artıq 28 ildir ki, davam edir: "Atəşkəs rejimi daimi proses deyil. Azərbaycan nə vaxtsa öz torpaqlarını azad etmək üçün aktiv anti-terror əməliyyatlarına keçəcək. Torpaqlarını güc yolu ilə azad edəcək. Ermənilər Azərbaycan üçün başqa çıxış yolu qoymurlar. Nikol Paşinyanın rəhbərlik etdiyi hökumət də artıq bütün danışıqları tupikə gətirib çıxarıb. Bizdə belə bir atalar sözü var, yalançını qapısına kimi qovarlar. Artıq müharibə Ermənistanın qapısındadır, ya hə, ya da yox deməlidir. Bu vaxta kimi danışıqlar prosesi, məsləhətləşmələr hansısa ümid verirdi. Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi nəticəsində artıq bunun belə olmadığını görürük". Hərbi ekspert bildirdi ki, Nikol Paşinyan Ermənistan cəmiyyətini təhlükəyə və faciəyə sürükləyir. Onun sözlərinə görə, Azərbaycanın güc variantından istifadə etməsinə təhrik edir: "Paşinyan Şuşada çıxışı zamanı Azərbaycan torpaqlarını istəyirsə, gəlsin alsın-demişdi. Azərbaycan torpaqları hərb yolu ilə verib, indi niyə hərb yolu ilə dilənir - söyləmişdi. Paşinyan səfeh çıxışları ilə münaqişənin həllini sülhə yox, hərbə tərəf istiqamətləndirir. Azərbaycan Prezidenti cənab İlham Əliyev də münaqişənin həllinə beynəlxalq qurumların diqqətini cəlb edib. Cənab Ali Baş Komandan dəfələrlə qeyd edib ki, Azərbaycanın başqa çıxış yolu qalmır. Ermənistan qeyri-konstruktiv mövqe sərgiləməklə Azərbaycanı anti-terror əməliyyatları aparmağa məcbur edir. Belə olan halda Azərbaycan öz hüquqlarından istifadə edərək öz torpaqlarını işğaldan azad etməyə məcbur olacaq. Bu da işğal olunmuş ərazilərdə anti-terror əməliyyatları aparmaqla mümkündür".

Şair Ramaldanov son günlər Azərbaycan Ordusunun genişmiqyaslı hərbi təlimlərinə də diqqət çəkib: "Bu hərbi təlimlər plan üzrə həyata keçirilir. Bunun müharibə anonsu ilə hər hansı bir əlaqəsi yoxdur. Müdafiə naziri cənab Zakir Həsənovun da bildirdiyi kimi, Azərbaycan Ordusu hər an Ali Baş Komandanın istənilən əmrini yerinə yetirməyə hazırdır. Sadəcə olaraq bu təlimlər döyüş hazırlığıdır. Şəxsi heyətin döyüş qabiliyyətinin yüksəldilməsinə xidmət edir. Plana uyğun olaraq bu cür təlimlər bundan sonra da keçiriləcək. Hər an hərbi əməliyyatlar başlaya bilər. Azərbaycan Silahlı Qüvvələri əmrə tabe olan bir qurumdur. Qışından, yazından, payızından asılı olmayaraq, ordumuz istənilən döyüş əmrini yerinə yetirməyə hazırdır".

✍ *Tural*

# İtaliyada həyat əvvəlki vəziyyətinə dönməyə başlayıb

***Çində pandemiya yayılmağa başlayanda Avropa qitəsində düşünürdülər ki, virus ora çatmayacaq. Amma az sonra ilk yoluxmalar İtaliyada zühur etdi - qısa müddətdə minlərlə italiyalı koronavirusun daşıyıcısına çevrildi. Səhiyyə sistemi çökmək risqi ilə üzləşdi, eyni bayraq altında birləşən Avropa Birliyi ölkələri İtaliya ilə sərhədlərini bağladı və sair. Bəs indi vəziyyət necədir, İtaliya böhrandan çıxdımı? Bu müstəvidə Azərbaycan - İtaliya Gənclər Assosiasiyasının (AİGA) sədri Emin Rüstəmovla söhbətləşdik. Nə dedi, nə danışdıq, gəlin birlikdə oxuyaq:***

- Təəssüflə bildirmək istəyirəm ki, dünyada, xüsusilə də Avropada son günlərə qədər İtaliya ölüm sayına görə ilk yerlərdə qərarlaşırdı. Mart ayının sonu, aprel ayında isə demək olar ki, vəziyyət nəzarətdən çıxmışdı. Martın 9 -da İtaliya hököməti olkəni bütünlüklə "Qırmızı zona" adlandırdı və İtaliyada karantin rejimi tətbiq olundu. Karantin rejiminin tətbiqinə baxmayaraq, İtaliyada yoluxma və ölüm halları getdikcə artmaqdaydı. Təbii ki, pandemiyanın fəsadları yalnız insan tələfatı ilə deyil, eyni zamanda, ölkə iqtisadiyyatına vurduğu çox ciddi zərərlərlə özünü göstərdi. İtaliyada həyat tədricən əvvəlki vəziyyətinə dönməyə başlayıb. Karantin rejiminin mərhələli şəkildə yumşaldılmasına start verilib. Artıq iyun ayının 3-dən etibarən Avropa Birliyi ölkələri, iyul ayından etibarən isə qeyri-Avropa ölkələri ilə sərhədlərin açılmasına qərar verilib.

***- ÜST-ün saytına baxıram, İtaliya siyahıda az vaxt öncə birinci olduğu halda bu gün altıncıdır. Deməyə əsas varmı ki, İtaliyada pandemik təhlükə geridə qaldı, artıq hər şey yaxşıya gedir?***

- Bu barədə, təəsüf ki, ciddi proqnoz verməyə çəkinirəm. Mənim subyektiv fikrimcə, İtaliya hököməti yumşalma prosesinə bir az erkən başladı və hesab edirəm, bir müddət də gözləmək olardı. Bununla bərabər, yumşalma prosesinə başlanılsa da, sosial məsafənin saxlanılması kimi bir sıra karantin qaydalarına əməl edilməsi əhali qarşısına qoyulmuş əsas tələblərdəndir. İndi ümid qalıb əhalinin bu qaydalara nə qədər ciddi əməl edib etməməsinə. Təbbi ki, əgər qaydalara əməl olunmazsa, yenidən pandemiyanın alovlanmasına münbit zəmin yaranacaq.

***- Maraqlıdır, çox ağır vəziyyətdə olan İtaliyada yaşayan və ya təhsil alan əcnəbilərə də italiyalılarla eyni cür tibbi dəstək verilirmi? Yəni onlar da İtaliya vətəndaşları ilə eyni səviyyədə müalicə olunurmu və sair...***

- Bilirsiniz, həkimlər İtaliyada əllərindən gələnin artığını etdilər. Düşünmürəm ki, bu peşənin sahibləri xəstələr qarşısında onların vətəndaşlığına görə ayrıseçkilik etsinlər. Bütün tibbi personal hərkəsə xüsusi diqqət göstərirdilər. Amma bunu da etiraf etmək lazımdır ki, pandemiyanın pik vaxtında, hansı ki, palatalarda yer yox idi, süni nəfəs aparatları çatmırdı, o zaman həkimlərin özləri məcburiyyətdən dolayı kimin yaşayacağına dair qərar verməli olurdular.

***- Əcnəbilərdən söz düşmüşkən, hazırda İtaliyada təxminən neçə azərbaycanlı yaşayır və pandemik şəraitdə onların vəziyyəti necədir, aralarında yoluxma və ya ölüm halları qeydə alınıbmı?***

- Müxtəlif mənbələrə görə İtaliyada yaşayan azərbaycanlıların sayı fərqlidir. Bizim hesablarımıza görə, hazırda İtaliyada 2500 nəfərə yaxın azərbaycanlı yaşamaqdadır. Onların da əksəriyyəti tələbələrdir. Amma hazırda mövcud vəziyyətlə əlaqədar İtaliyada qalan həmyerlilərimizin sayı kifayət qədər azalıb. İtaliyada karantin rejimi elan olunana qədər soydaşlarımızın əksəriyyəti vətənə dönüb. Pandemiyanın ən qızğın vaxtında isə - martın 17-də İtaliyanın müxtəlif şəhərlərində yaşayan 161 nəfər həmyerlimiz, İtaliyadakı səfirliyimizin təşkilatçılığı ilə Roma - Bakı çarter reysi ilə Azərbaycana qayıdıb. Xoşbəxtlikdən İtaliyadan gedən və İtaliyada qalan həmyerlilərimiz arasında yoluxma faktı qeydə alınmayıb.

***- İtaliyada diaspor təşkilatlarımız pandemik şəraitdə azərbaycanlılara hər hansı yardım edə bilirmi, bu məsələdə səfirliklə hər hansı təmas***



**Emin Rüstəmov,**
Azərbaycan - İtaliya Gənclər Assosiasiyasının (AİGA) sədri

***olurmu? Sualın davamı olaraq, eyni zamanda, milli təşkilatlarımız, ayrı-ayrı soydaşlarımız ümumilikdə İtaliya əhalisinə hər hansı yardım filan göstərirmi?***

- İstər pandemiya dövründə, istərsə də pandemiyadan öncəki dövrlərdə rəhbəri olduğum Azərbaycan İtaliya Gənclər Assosiasiyası (AİGA), Azərbaycanın İtaliyadakı səfirliyi, eyni zamanda Diasporla İş üzrə Dövlət Komitəsi ilə mütəmadi olaraq əlaqədə olub. Bununla yanaş, hazırda İtaliyada qalan azərbaycanlılarla da ünsiyyətimizi kəsməmişik. Pandemiya dövründə İtaliyadakı səfirliyimiz və Diasporla İş üzrə Dövlət Komitəsi 24 saatlıq iş rejiminə keçib, yaradılmış qaynar xətt vasitəsilə vətəndaşlarımıza xidmət göstərib. Bütün bunların fonunda səfirlik və komitə tərəfindən bir sıra vətəndaşlarımıza müvafiq yardım göstərilib. Bunlardan əlavə, Azərbaycan - İtaliya birliyi ilə birgə başlatdığımız yardım kompaniyası çərçivəsində İtaliyada təhsil alan 37 azərbaycanlıya maddi yardım paylanılıb.

***- İtaliyada yoluxmanın sürətlə getməsinin və ölüm hallarının çox olmasının səbəbi nə idi? Rəqəmlərə baxıram, ümumi yoluxanların hardasa 127 mini sağalıb evə gedib, amma 32 min insanın ölməsi və hələ də 67 minədək adamın müalicə olunduğunu nəzərə alsaq, fikirləşmək olar ki, İtaliya səhiyyəsi arzulanan səviyyədə deyil? Yaxud da düşünə bilərikmi ki, pandemiyanın önlənməsi üçün İtaliya hökuməti gec səfərbər olunub?***

- Bu mövzuda sizinlə razılaşa bilmərəm. İtaliya səhiyyəsi dünyada öndə gedən səhiyyə sistemlərindən biridir. Sadəcə, digər dünya ölkələri kimi İtaliya da bu kimi pandemiyanın fəsadlarının bu qədər miqyassız və nəzarətə götürülə bilməyəcək qədər təhlükəli olması barədə məlumatsız idi. Covid-19 İtaliyada bir göz qırpımında yayıldı. Bunun da bir neçə əsas səbəbləri var idi. Bildiyiniz kimi İtalyanlar dünyanın ən çılğın və emosianal xalqlarından biridir. Bu dəfə proses onlar üçün heç də yaxşı nəticələnmədi. Ölkədə xəstəliklə bağlı müəssisələr bağlananda xalq bunu ələ düşmüş fürsət kimi dəyərləndirib küçələrə, parklara, meydanalara axışdı. İkinci səbəb onlar bu xəstəliyə inanmır, ciddiyə almırdılar. Üçüncü səbəb isə digər ölkələrlə müqayisədə İtaliyada yaşlı nəslin daha çox olması idi. Son səbəb kimi də onu göstərə bilərik ki, İtaliya, ilk növbədə, karantin rejimini şimal bölgələrində elan etmək istəyəndə əhali kütləvi şəkildə mərkəzə və cənuba doğru hərəkət etməyə başladı. Beləliklə, asimptomatik virus daşıyıcıları xətəliyi özləri də bilmədən İtaliyanın hər yerinə yaydılar.

***- Sonda, İtaliya azərbaycanlıları olaraq, Azərbaycan dövlətindən pandemiyadan xilas olma məsələsində hər hansı yardım və sair şəklində gözləntiləriniz varmı?***

- Azərbaycan dövləti pandemiya dövründə İtaliyada yaşayan soydaşlarımızın təxliyyəsi ilə bağlı zəruri addımı ataraq, bir çoxlarının vətənə dönməsinə şərait yaratdı. Eyni zamanda, adını çəkidyim dövlət qurumları və səfirliyimiz mütəmadi əlaqə saxlayaraq azərbaycanlıların tək olmadığını bir daha sübut etmiş oldular. Hazırda vəziyyət yaxşıya doğru gedir. Ümid edirik ki, yenidən əvvəlki vəziyyətə qayıtmayacağıq. Əgər belə bir hal yaşanarsa, dövlətimizin yenə də bizi tək qoymayacağına inanıram.

*✍ Vüsal*

# Müharibə hələ bitməyib



◂ əvvəli 1-ci səhifədə

çə endirməklə, bölgədə gələcək hərbi qarşıdurmanın və gərginliyin artmasına xidmət edir. Heç kəs şübhə etməsin ki, işğal olunmuş ərazilərimiz işğaldan azad olunacaq, beynəlxalq tanınmış sərhədləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və məcburi köçkünlərin fundamental hüquqları təmin ediləcək".

Müharibə hələ bitməyib və Azərbaycan beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün bərpasını bütün mümkün vasitələrlə təmin etmək hüququna malikdir.

Ermənistan rəhbərliyinin bu kimi təxribatçı fəaliyyəti münaqişənin sülh yolu ilə həlli cəhdlərini, demək olar ki, he-

# Ermənistanın milli siyasəti öz təbliğatının tələsinə düşüb

**"Qaregin Njdedən fərqli olaraq, demokratiya dəyərlərini bölüşən Məmməd Əmin Rəsulzadə fövqəlbəşər ari millətçiliyinə əsaslanan faşist ideologiyasını qəbul edə bilməzdi. Paşinyanın tarix araşdırmaları isə yalnız alman mənbələrində Rəsulzadə barədə xatırlamalarla məhdudlaşdı - hansı mənbələr ki, Ermənistan baş naziri və köməkçiləri, yəqin ki, nüfuz edəsi olmayıblar".**

Hafta.az erməni mediasına istinadən xəbər verir ki, bunu Ermənistandan olan publisist Mamikon Babayan Nikol Paşinyanın Məmməd Əmin Rəsulzadə ilə bağlı səsləndirdiyi fikirlərə münasibət bildirərkən deyib. Erməni publisistin sözlərinə görə, ehtimal ki, bu cür siyasi demaqogiya - erməni ictimaiyyətinin diqqətini manipulyasiya etmək üçün növbəti cəhddir:

"Pandemiya dövründə, bütün ölkənin davamlı olaraq gərginlikdə yaşadığı vaxtda Ermənistanın baş naziri beləcə, tarixə baş vurmaqdan savayı, uyğun bir mövzu tapa bilməyib - artıq qəti olaraq aydındır ki, Paşinyanın həmin tarixdən başı çıxmır. Bu yaxınlarda MDB ölkələri



ümumi Qələbə Gününü qeyd etdilər. Lakin müasir Ermənistanda bu bayram birmənalı qarşılanmadı. Ölkədə Njdeyə pərəstiş irəliləməkdə davam edir. Ermənistanın milli siyasəti öz təbliğatının tələsinə düşüb ki, bu da "qəhrəman" axtarışına gətirib. Beləcə, "ən qədim xalq" obrazını qorumaq üçün erməni millətçi ideoloqlar postsovet məkanında konsolidasiya prinsiplərindən uzaqlaşmaqdadırlar.

*✍ Tural*

# ABŞ radiosunda Trampın Azərbaycan Prezidentinə məktubu müzakirə olunub

**ABŞ-ın nüfuzlu Con Batçelor Şou radio proqramında Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov və Corctaun Universitetinin professoru Brenda Şefferin müsahibəsi yayımlanıb. Azərbaycanın ABŞ-dakı Səfirliyindən hafta.az-a bildirilib ki, müsahibənin əsas mövzusu ABŞ Prezidenti Donald Trampın Azərbaycanın Respublika günü ilə bağlı Prezident İlham Əliyevə yazdığı təbrik məktubu olub.**

Öncə jurnalist regionda və ölkəmizdə koronavirus pandemiyası ilə bağlı vəziyyətə dair məlumat verib, ölkəmizin virusla mübarizə üçün tibbi avadanlıq və lazımi texnologiyaya malik olmasından bəhs edib. Daha sonra Azərbaycanı və Azərbaycan xalqını Respublika günü münasibətilə təbrik etmiş və ABŞ Prezidenti Donald Trampın məktubunu dinləyicilər üçün səsləndirib.

Jurnalist Azərbaycanın regionda sülh və tolerantlıq nümunəsi olduğunu bildirib, D. Trampın Azərbaycan Prezidenti və xalqı tərəfindən görülən işlərin müttəfiqlik kimi qiymətləndirdiyini diqqətəlayiq hesab edib. Prezident Trampın məktubu-



nun əhəmiyyətini qeyd edən səfir Süleymanov bildirib ki, burada Azərbaycanın suverenliyi və müstəqilliyinə güclü dəstək ifadə olunması Azərbaycanın regionun sözün əsl mənasında suveren və müstəqil ölkəsi kimi tanındığına daha bir göstəricidir: "Bütün ölkələrin çətinliklərlə üzləşdiyi bir dövrdə Tramp administrasiyasının beynəlxalq münasibətlərin vacib aspektlərinə fokuslanması və Azərbaycanla tərəfdaşlığı dəyərləndirməsi təqdirəlayiqdir. Terrorizmlə mübarizə, enerji şaxələndirilməsi, təhlükəsizlik, daha yaxşı cəmiyyətin qurulması sahəsində 30 ildir ki davam edən Azərbaycan ABŞ əməkdaşlığı və bu sahədə gələcəyə inam olduqca vacibdir mesajdır".

Səfir müsəlman aləmində ilk respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 102-ci ildönümündə Prezident Trampa məktubuna görə minnətdarlığını ifadə edib.

Jurnalist Azərbaycanın vacib geostrateji ərazidə yerləşməsinə toxunaraq, ABŞ-ın ölkəmizi hər zaman kömək əlini uzadan, regionda sülhə can atan tərəfdaş kimi görməsinə diqqət çəkib. O, Prezident İlham Əliyevin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü zamanı ABŞ-ın Silikon Vadisində yerləşən CİSCO beynəlxalq rabitə şirkətinin vasitələrindən istifadə etməsinə, həmçinin Qoşulmama Hərəkatının və Avropa İttifaqının onlayn görüşləri zamanı bu texnologiyaya üz tutulmasına toxunub. Professor Şeffer Prezident Trampın məktubunun onun əsl müttəfiqlərə dəyər verən daha geniş siyasətinin tərkib hissəsi olduğunu bildirib. Azərbaycanın ABŞ üçün hər zaman güvənilən tərəfdaş olduğunu qeyd edib. B. Şeffer ölkəmizin regionun sürətlə inkişaf edən ölkəsi olmasını və bir sıra ölkələrdə sərmayələr yatırmasını müsbət dəyərləndirib. O, TDƏŞ ölkələri arasında əməkdaşlığın regiondaxili inteqrasiyadan xəbər verdiyini diqqətə çatdırıb. Səfir Süleymanov Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə keçirilən onlayn görüşünə toxunaraq, pandemiyanın davam etdiyi dövrdə belə Azərbaycanın sülh cəhdlərinin davam etdiyini bildirib. Ölkəmizin hər zaman sülhün tərəfində olması, regional tərəfdaşlığı təşviq etməsinə baxmayaraq, Ermənistanın davamlı olaraq təkliflərdən imtina etməsi və özünü təcrid yolunu seçməsinə toxunub. Azərbaycanın regional və beynəlxalq təşəbbüslər həyata keçirməsi, son zamanlarda Avropa İttifaqı və Qoşulmama Hərəkatının CİSCO vasitəsilə bir araya gəlməsini buna misal olaraq göstərən səfir, Ermənistanın etnik streotiplərə söykənən siyasətindən əl çəkmədiyini qeyd edib.

*✍ Hafta.az*

## GÜNÜN TƏZADLARI

### 60 yaşlı şəxs "kəşfiyyatçı", "hacı" adları altında dələduzluq etdi



■ **Özünü "kəşfiyyatçı", "din adamı" kimi tanıdıb dələduzluq edən 60 yaşlı şəxs hakim qarşısına çıxarıldı.** Hafta.az xəbər verir ki, Səbail Rayon Məhkəmsinin qərarı ilə 1960-cı il təvəllüdlü Nazim Quliyev barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti uzadılıb. Məhkəmənin qərarı ilə onun barəsində seçilmiş həbs müddəti daha 3 ay uzadılıb. Məlum olub ki, Nazim Quliyevə qarşı Cinayət Məcəlləsinin 178.2.2-ci (dələduzluq; təkrar törədildikdə) və 178.2.4-cü (dələduzluq; xeyli miqdarda törədildikdə) maddəlri ilə ittiham irəli sürülüb.

Nazim Quliyevin həbsi ilə bağlı maraqlı iddialar var. N.Quliyevin dələduzluq əməli televiziya kanallarının birində yayımlanan proqramda açılıb. Məlum olub ki, N.Quliyev bir neçə rayonda məskunlaşaraq dələduzluq edib. Naxçıvanın Culfa rayonunun Əbrəqunus kəndində doğulan N.Quliyev bir neçə dəfə qeyri-rəsmi ailə qurub. Seçdiyi xanımlar, əsasən, evlilik yaşını ötmüş qadınlar olurmuş. O özünü dindar kimi tanıdaraq, insanlarda özünə qarşı güvən yaradıb. Hər dəfə evləndiyi kənddə əvvəlcə oranın məscidini təmir etdirib, sonra bir neçə nəfəri öz pulu ilə Məşhəd ziyarətinə göndərib, yas yerlərinə maddi yardım edib və sair. Beləcə, dələduzluq məqsədilə məskən saldığı kəndlərdə insanların etimadını qazanıb və kənd sakinlərindən pul alıb. Aldatdığı şəxslərdən hərbi təqaüd düzəldəcəyinə, sosial evlərdən mənzil alacağına, nazirliklərdə vəzifəyə qoyacağına söz verərək 100 minə yaxın pul alıb.

İnsanlarda özünə qarşı mərhəmət yaratmaq üçün o, həyat yoldaşının Aprel döyüşlərində yaralandığını, sonra isə öldüyünü deyib. N.Quliyev adının başqa yerlərdə çəkilməməsi, haqqında danışılmaması üçün özünü həm də gizli kəşfiyyatçı kimi də təqdim edib. Məskunlaşdığı rayonlarda özünü müxtəlif adlarla təqdim edərək insanlardan işə düzəltmək adı ilə pul alıb.

### Saatlıda qardaşına narkotik satan şəxs tutuldu



■ **Saatlı rayon sakini, əvvəllər məhkum edilmiş Adəm Zeynalov öz qardaşına 10 manat müqabilində heroin satarkən saxlanılaraq Saatlı Rayon Polis Şöbəsinə gətirilib.** Hafta.az yazır ki, DİN Mətbuat Xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, A.Zeynalov RPŞ-nin əməkdaşları tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində yaxalanıb. Şəxsi axtarış zamanı onun üzərindən 1 büküm heroin aşkar edilərək götürülüb. Davam etdirilən tədbirlərlə A.Zeynalovun yaşadığı ünvana baxış keçirilən zaman oradan polietilen torbada təmiz çəkisi 3 kq 570 qram olan qurudulmuş marixuana aşkar edilərək götürülüb. Dindirilmə zamanı o, törətdiyi cinayət əməlini etiraf edib. Faktla bağlı Saatlı RPŞ-də araşdırmalar davam etdirilir.

### Canlı yayımda AzTV əməkdaşının saçını kəsdilər



■ **AzTV-də yayımlanan "Gün başladı" proqramının aparıcısı Xədicə Sənanqızı gözlənilməz sürprizlə qarşılaşdı.**

Hafta.az-ın yazdığına görə, sözügedən verilişdə qonaq olan dünyaca məşhur stilist və vizajist Anar Ağakişiyev əlinə qayçı alaraq aparıcının saçlarını kəsib. "Həyatım boyu başıma belə bir oyun gəlməmişdi. Veriliş gedə-gedə saçımı kəsdilər. Bu, sizə borc olsun. Saçlarımı neçə ildir uzadıram", - deyə X.Sənanqızı bildirib. Öncə üzündən narahatlıq hiss olunan aparıcı güzgü qarşısına keçəndən sonra, A.Ağakişiyevin əl işini bəyəndiyini vurğulayıb.

### ATV-nin əməkdaşı koronavirusa yoluxdu



■ **"Əməkdaşımız istiliyi olduğu üçün həkimə müraciət edib. Bu zaman ondan test götürülüb. Testin ilkin nəticəsi pozitiv çıxıb".**

Hafta.az yazır ki, bu sözləri "Azad Azərbaycan"nın İcraçı direktoru İsmayıl Həsənov kanalın Xəbərlər Departamentinin müxbiri Mahmud Rövşənoğlunun koronavirusa yoluxması ilə bağlı "Qafqazinfo"ya açıqlamasında dedi. O bildirib ki, jurnalist hazırda karantin şəraitindədir. "Bildiyiniz kimi, test bir neçə dəfə aparılır. Hazırda karantinə götürülüb. Vəziyyəti normaldır. Danışmışıq, səhhətində hər hansı bir ağırlaşma yoxdur. Testin ikinci cavabını gözləyirik və ümid edirik, əməkdaşımızın testinin ikinci nəticəsi neqativ çıxacaq. Virusa hansı şəraitdə yoluxduğu bilinmir. İnsanlar tək işdə olmur, şəhərdə, müxtəlif yerlərdə olur. Demək olmaz ki, iş başında yoluxub. Yalnız sözügedən əməkdaşımız karantinə yerləşdirilib".

### 82 yaşında 51 il eyni komandada baş məşqçi olduğu bilindi



■ **Rusiyanın qadın voleybolçulardan ibarət "Uraloçka" komandasının baş məşqçisi Nikolay Karpol dünya rekordu müəyyənləşdirdi.** Hafta.az yazır ki, əfsanəvi mütəxəssis 51 ildir Yekaterinburq komandasında çalışır. 82 yaşlı baş məşqçi adının "Ginnesin Rekordlar Kitabı"na salınması üçün hələ müraciət etmədiyini bildirib: "Mən artıq rekordu bir il keçmişəm. Eyni komandada 51 il işləmişəm. Amma hələ müvafiq ərizə verməmişik". Karpol dünya rekordu müəyyənləşdirmək istədiyini hələ 2017-ci ildə açıqlamışdı. O, Ginnesin Rekordlar Kitabına düşmək üçün tarixi nailiyyəti təsdiqləyən lazımi sənəd və sübutları təqdim etməlidir. Ahıl yaşına rəğmən, o, gələn mövsüm də "Uraloçka"nın sükanı arxasında olacaq. Rusiyalı mütəxəssis bu komandaya 1969-cu ildən rəhbərlik edir.

Qeyd edək ki, Nikolay Karpol dünyada voleybol, Rusiyada isə oyun növləri üzrə ən titullu baş məşqçisidir. O, eyni zamanda çalışdığı SSRİ millisi ilə 2 dəfə (1980, 1988) olimpiya, bir dəfə (1990) dünya, 3 dəfə (1979, 1989, 1991) Avropa, Rusiya yığması ilə 4 dəfə (1993, 1997, 1999, 2001) Avropa çempionluğu əldə edib. "Uraloçka"da isə Karpol 11 dəfə SSRİ çempionu, 3 dəfə SSRİ Kuboku, 14 dəfə Rusiya çempionu, 8 dəfə Avropa Çempionlar Kuboku və 1 dəfə Kuboklar Kubokunun qalibi olub.

*✍ Sultan Laçın*

# Paytaxtın 7 rayonu DOST xidmətləri ilə əhatə olunub

***Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə açılışı olan 3 saylı DOST mərkəzi Bakının daha 3 rayonu üzrə DOST xidmətlərinin tətbiqinə imkan verib. Bunlar Nizami, Sabunçu və Suraxanı rayonlarıdır. Həmin mərkəzdən əvvəl, ötən il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyinin Bakıda istifadəyə verilən 1 və 2 saylı DOST mərkəzləri isə Səbail, Yasamal, Xəzər, Pirallahı rayonlarının əhalisinə xidmət edir.***




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən hafta.az-a bildiriblər ki, yeni mərkəzin açılması ilə artıq paytaxtın 7 rayonu DOST xidmətləri ilə əhatə olunub.

İndiyədək 1 və 2 saylı DOST mərkəzlərinə 100 mindən çox şəxsə xidmət göstərilib və vətəndaşların bu xidmətlərdən məmnunluq səviyyəsi 96 faizdir. Yeni mərkəz isə üç mərkəzdən ən böyüyüdür və qeyd edilən üç rayon üzrə gündəlik 500, il ərzində isə 150 mindən artıq vətəndaşı qəbul edə biləcək. 130-dan çox işçinin, 50 könüllünün çalışdığı mərkəzdə əmək, məşğulluq, sosial müdafiə, əlillik, reabilitasiya və s. istiqamətlərdə 132 növdə xidmət innovativ həllərin tətbiqi üzərində "bir pəncərə"dən, şəffaf və operativ şəkildə təqdim ediləcək. Ölkəmizdə sosial sahədə əldə olunan uğurlarda, pandemiya ilə əlaqədar məşğulluğa və sosial rifaha dəstək tədbirlərinin həyata keçirilməsində sosial xidmətlərin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulmasının da öz payı var.

Vətəndaş məmnunluğunun təmin olunmasında, sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsində Prezident İlham Əliyevin 2018-ci ildə imzaladığı Fərmanla sosial islahatlar proqramının əsas hədəfi kimi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan DOST Agentliyi bu sahədə nümunəviliyi ilə seçilir.

■ **Bunu hafta.az-a açıqlamasında Milli Məclisin deputatı Naqif Həmzəyev bildirib.** Deputat qeyd edib ki, "ASAN xidmət"dən sonra birinci xanım Mehriban Əliyevanın təşəbbüsü ilə innovativ xidmət növünün - DOST layihəsinin vətəndaşların ixtiyarına verilməsi ölkəmizdə sistemli şəkildə həyata keçirilən sosial siyasətin artıq ənənə halını aldığının göstəricisidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə mayın 19-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Nizami rayonunda yerləşən 3 saylı DOST mərkəzinin vətəndaşların ixtiyarına verilməsi davamlı olaraq həyata keçirilən həmin siyasətin məntiqi nəticəsidir. Eyni zamanda, yeni DOST mərkəzinin istifadəyə verilməsi Azərbaycan vətəndaşının firavan yaşayışını və vətəndaş məmnunluğunun təmin edilməsi sahəsində atılan addımlardandır.

O bildirib ki, Prezident yeni istifadəyə verilən DOST mərkəzi ilə tanışlıqdan sonra Azərbaycan Televiziyasına müsahibəsində ölkəmizin bu sahədə də liderlik göstərdiyini qeyd edib: "DOST mərkəzlərinin fəaliyyətə başlaması sosial sahədə görülən işlərin, aparılan islahatların əyani təzahürüdür. Artıq üçüncü mərkəz açılır və ilk açılan iki mərkəzin fəaliyyəti də çox uğurludur.

Vətəndaşların bəyənmə əmsalı 96 faizə çatıbdır. Burada göstərilən xidmətlər, əlbəttə, sosial təminat sahəsində böyük bir yenilikdir və təsadüfi deyil ki, artıq bir neçə ölkə bu təcrübə ilə bağlı bizə müraciət edib və Azərbaycan öz təcrübəsini bölüşməyə hazırdır". Koronavirus pandemiyasının sərhədləri aşıb-keçdiyi ilk gündən Azərbaycan özünün gücü hesabına gözəgörünməz "düşmən"in öhdəsindən gəlməyə qadir olduğunu dünyaya nümayiş etdirdi.

Müsahibəsində Prezident İlham Əliyev Azərbaycanda koronavirusun qarşısının alınması ilə bağlı görülən işlərdən və həyata keçiriləcək tədbirlərdən danışarkən bildirdi ki, Azərbaycan dünya miqyasında çox böyük hörmətə və yüksək imicə malik olan ölkədir. Əks təqdirdə, biz səkkiz il bundan əvvəl 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına seçilməzdik. Əks təqdirdə, Qoşulmama Hərəkatının yekdil qərarı ilə, 120 ölkənin qərarı ilə sədr seçilməzdik.

"2019-2021-ci illərdə Qoşulmama Hərəkatının sədrlik edəcək Azərbaycan diqqəti ümumi evimizin - planetimizin üzərinə qara kabus kimi çökən bəlanın öhdəsindən dünya ölkələrinin qarşılıqlı dəstək və birgə səyləri ilə gəlməyin yollarına yönəldib. Dövlətimizin başçısı Azərbaycanın pandemiyaya qarşı mübarizədə əldə etdiyi müsbət təcrübəni digər dövlətlərlə bölüşməyə hazır olduğunu da hər zaman diqqətə çatdırıb:

"Koronavirusla bağlı işlər əvvəldən Azərbaycanda çox düzgün istiqamətdə aparıldı və bunu həm Azərbaycan xalqı görür və təqdir edir, həm də beynəlxalq təşkilatlar. Bu günə qədər mən vətəndaşlardan gündə yüzlərlə məktub alıram. Yəni, pandemiyanın ilk günlərindən minlərlə məktub almışam və bütün bu məktublar təşəkkür xarakterli məktublardır.

Çünki doğrudan da qabaqlayıcı tədbirlərin görülməsi bizi böyük bəladan xilas etdi. Yenə də hər şey müqayisədə ölçülür". Məhz indiki çətin və ağır dönəmdə Azərbaycanın özünü uğurla təsdiqləməsi, bütün problemləri aşması, dünyaya nümunə olması ölkə Prezidenti İlham Əliyevin uzaqgörənliyi və vaxtında verilmiş qərarları sayəsində əldə edilib. Vətəndaşlarının sağlamlığı və onların sosial müdafiəsinin təmin edilməsi Azərbaycan dövləti üçün hər zaman prioritet məsələ olub. Dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycan o ölkələrdəndir ki, həmişə üzüağ, alnıaçıq olub və pandemiya bunu bir daha təsdiqləyib", - deyə deputat vurğulayıb.

✍ ***Tural***

# "ExxonMobil" "AÇG"dakı hissələrini sata bilər




**ABŞ-ın "ExxonMobil" neft şirkəti "Azəri-Çıraq-Günəşli" (AÇG) yatağındakı öz hissələrini sata bilər. Bu barədə "Reuters" agentliyinə şirkətin nümayəndəsi Culi Kinq deyib.**

C.Kinq bildirib: "ExxonMobil" Azərbaycanda fəaliyyət göstərməyən istehsal aktivlərinə bazar marağını yoxlayır.

Başqa şirkətlər aktivlərdə daha çox dəyər görsələr, biz onları satacağıq". Agentliyin bank sektorundakı mənbələri bildiriblər ki, mümkün sözləşmə Asiyanın böyük neft və qaz şirkətlərində maraq doğurub. Qeyd edək ki, AÇG blokunun işlənməsi üçün müqavilə 1994-cü ildə imzalanıb. 14 sentyabr 2017-ci ildə Bakıda AÇG blokunun 2050-ci ilə qədər işlənməsi ilə bağlı yeni müqavilə imzalanıb.

✍ ***Hafta.az***

# Daha 113 nəfər koronavirusa yoluxub, 55 nəfər sağalıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasına 113 yeni yoluxma faktı qeydə alınıb, 55 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahdan hafta.az-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1963 və 1966-cı il təvəllüdlü iki nəfər vəfat edib.**



Hazırkı dövrədək ölkəmizdə 3631 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 2253 nəfər müalicə olunaraq sağalıb, 43 nəfər vəfat edib, 1335 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 46 nəfərin vəziyyəti ağır, 64 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 245.609 test aparılıb.

# İki rayona yeni prokuror təyin edilib

**Prokurorluq orqanlarının kadr korpusunun peşəkarlıq və mənəvi keyfiyyətlərinə görə fərqlənən işçilərlə komplektləşdirilməsi istiqamətində işlər davam etdirilir.**

Bu barədə Baş Prokurorluğun Mətbuat Xidmətinin rəhbəri Eldar Sultanov sosial şəbəkədə məlumat yayıb. Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin imzaladığı əmrlərlə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi Babayev Əli İbrahim oğlu tutduğu vəzifədən azad olunaraq Gədəbəy rayon prokuroru, Samux rayon prokuroru vəzifəsini icra edən Hacıyev Mayıl Mehman oğlu isə həmin rayonun prokuroru vəzifələrinə təyin ediliblər.

# Azərbaycan pandemiya dövründə iqtisadi artımı qoruyan azsaylı ölkələrdəndir

**Pandemiya qlobal iqtisadiyyatda kəskin azalmalara gətirib çıxarıb. Nəzərə alsaq ki, dünya iqtisadiyyatında, eləcə də aparıcı ölkələrin ümumi daxili məhsulunda (ÜDM) azalma müşahidə edilir. Qlobal iqtisadiyyat üçün 2020-ci ildə proqnoz bütövlükdə dünya iqtisadiyyatının ikirəqəmli, yəni 10 faizdən çox azalmasından ibarətdir.**

Sevindirici haldır ki, Azərbaycan həm pandemiyadan əvvəlki dövrdə, həm də pandemiya vaxtı iqtisadi artım tempini qoruyub saxlaya bilib.

■ **Bu sözləri hafta.az-a Milli Məclisin deputatı Vüqar Bayramov deyib. "Azərbaycan pandemiya dövründə iqtisadi artımı qoruyub saxlayan azsaylı ölkələrdən biridir.** Bu ondan xəbər verir ki, Azərbaycan pandemiyanın təsirlərini minimumlaşdıran, eyni zamanda, 3,5 milyard manatlıq iqtisadi, sosial və dəstək paketi həyata keçirməklə yanaşı, ÜDM-dəki artımı qoruyub saxlayan ölkələr sırasındadır.



**Vüqar Bayramov,**
Milli Məclisin deputatı

Pandemiya dövründə Azərbaycanın ümumi daxili məhsuldakı artım tempinin qorunub saxlanması pozitiv qiymətləndirilməlidir. ÜDM-də artımın qeydə alınması, xüsusən də Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə bağlı aparılan islahatların nəticəsidir", - deyə deputat qeyd edib.

Əvvəlki illərdə ölkəmizdə həyata keçirilən dərinləşmiş islahatların pandemiyanın Azərbaycan iqtisadiyyatına təsirlərini azaltdığını diqqətə çatdıran V.Bayramov deyib: "Bu, bir tərəfdən imkan verdi ki, Azərbaycan sahibkarlar, məşğul əhalinin və işləməyən vətəndaşlarımızla bağlı birbaşa dəstək paketi həyata keçirə bilsin. Bu dəstək paketi nəticə etibarilə pandemiyanın təsirlərini minimumlaşdırdı. Azərbaycan pandemiya dövründə 1,7 milyon nəfərədək özəl sektorda çalışan vətəndaşlarımıza birbaşa maliyyə dəstəyi göstərdi. Ölkədə aparılan islahatlar imkan verdi ki, Azərbaycan qeyri-neft sektorunun inkişafı hesabına ÜDM-dəki artım tempini qoruyub saxladı. ÜDM-in strukturuna diqqət yetirsək görərik ki, artım daha çox qeyri-neft sektorunun hesabına baş verir. Bu o deməkdir ki, qeyri-neft sektoru ÜDM-dəki və bütövlükdə iqtisadiyyatdakı artımda drayverə çevrilir. Pandemiyanın təsirləri qalır, neftin dünya bazarında qiyməti aşağıdır, lakin iqtisadi islahatlar və qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirilən tədbirlər Azərbaycanın məhz pandemiya dövründə də iqtisadi artımı qoruyub saxla bilməsinə şərait yaradır. Bu isə təbii ki, postpandemiya dövrü üçün daha nikbin proqnozların verilməsi üçün baza yaradır. Nəzərə alsaq ki, iqtisadi paket strateji olaraq postpandemiya dövründə sahibkarların daha çox dəstəklənməsini nəzərdə tutub. Bu da nəticə etibarilə imkan verəcək ki, Azərbaycanın postpandemiya dövründə ümumi daxili məhsulunda daha yüksək iqtisadi artım müşahidə edə bilək. Bu, eyni zamanda, qeyri-neft sektorunun ÜDM daxil olmaqla makroiqtisadi göstəricilərdəki drayver rolunun qorunub saxlanması və genişləndirilməsinə xidmət edəcək".

✍ ***Sevinc***

BÖLGƏ

## BALAKƏN sakini 31 ailəyə qarşı dələduzluq etdi

**Balakən rayonunda dələduzluq faktı barədə polisə məlumat daxil olub. Rayonun Hənifə kəndindən olan 30 ailə hüquq-mühafizə orqanlarına müraciət edərək bildiriblər ki, rayonun Talalar kənd sakini Məmmədov Fərhad Vahid oğlu onları aldadıb külli miqdarda pulunu mənimsəyib.** Belə ki, F.Məmmədov kənd sakinlərini aldadaraq onlara "Simental" cinsli iribuynuzlu heyvanların dövlət xətti ilə ucuz qiymətə verəcəyini bildirib. Uzun müddət keçməsinə baxmayaraq, həmin şəxs nə həmin heyvanları gətirib, nə də ailələrdən aldığı pulları qaytarıb.




Həmçinin rayonun Postbinə kənd sakini Ruslan Hüseynov da polisə müraciət edərək, həmin şəxs tərəfindən eyni üsulla aldadıldığını bildirib. Faktla bağlı Balakən rayon Polis Şöbəsi araşdırmalara başlayıb.

## QUSARIN Quxuroba kənd tam orta məktəbi əsaslı təmir olunur

**Qusar rayonunun Quxuroba kənd tam orta məktəbində əsaslı təmir-bərpa işləri cari ilin sentyabr ayına kimi başa çatdırılacaq. Əsaslı təmir işləri yekunlaşdıqdan sonra məktəbdə 464 şagirdin təhsil alması üçün lazımi şərait yaradılacaq.**



Məktəb binasında təmir-bərpa işlərinə ötən ilin iyul ayından başlanılıb. 1989-cu ildə istifadəyə verilən təhsil ocağı köhnəldiyindən keyfiyyətli tədris üçün yararsız idi. Məktəbin direktoru Rasid Tahirov bildirib ki, təmirdən sonra üçmərtəbəli məktəb binası tamamilə yenidən qurularaq müasir tələblərə uyğun təhsil ocağı kimi fəaliyyətini davam etdirəcək. Binada təmir-bərpa işlərinin 50 faizdən çoxu başa çatdırılıb. Hazırda binanın çölündə suvaq, həyətin abadlaşdırılması, dam örtüyünün dəyişdirilməsi işləri həyata keçirilir. Tədris ocağında fənn kabinetləri, kitabxana, kompüter otağı, akt və idman zalları fəaliyyət göstərəcək.

Təhsil müəssisəsi müasir istilik və işıqlandırma sistemi ilə təchiz ediləcək. Yeni məktəb binasının həyətində qazanxana və su çənləri də inşa olunacaq.

## SABİRABADDA ət və süd istehsalı artıb

**Sabirabad rayonunun ayrı-ayrı heyvandarlıq və fərdi təsərrüfatlarında 354 min 352 baş heyvan saxlanılır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 min 335 baş çoxdur.**



Rayon statistika idarəsindən bildiriblər ki, təsərrüfatlarda mal-qara və davarların baş sayının artırılması ət və süd istehsalına da güclü təkan verib. Cari ilin ötən ayları ərzində rayonda 6 min 281 ton ət (diri çəkidə), 39 min 306 ton süd istehsal edilib. Bu, ötən ilin dörd ayı ərzində istehsal olunan ətdən 113 ton, süddən isə 365 ton çoxdur.

## QOBUSTAN Milli Tarix-Bədii Qoruğunun fəaliyyəti bərpa olunub

**Nazirlər Kabineti yanında Operativ Qərargahın mayın 18-dən etibarən ölkə ərazisində xüsusi karantin rejimi ilə əlaqədar tətbiq edilən bəzi məhdudiyyətlərin aradan qaldırılması barədə qərarına uyğun olaraq Qobustan Milli Tarix-Bədii Qoruğunun fəaliyyəti bərpa olunub.**



Qoruğun mətbuat xidmətindən hafta.az-a bildirilib ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın qaydaları və metodiki göstərişlərinə əsasən ziyarətçilər qoruğu 10 nəfərdən artıq olmayan qruplarla, sosial məsafə və sanitar-epidemioloji qaydalara əməl etmək şərti ilə ziyarət edə bilərlər.

## Əfvlə bağlı işçi qrup niyə toplaşa bilmir?

**"Bu gedişlə 28 May Respublika Günü ilə əlaqədar Əfv sərəncamı olmayacaq. Səbəbi odur ki, hələ də Əfv Komissiyası toplaşa bilməyib".** Bunu hafta.az-a açıqlamasında İşçi qrupunun üzvü, hüquq müdafiəçisi Novella Cəfəroğlu deyib. Hüquq müdafiəçisinin sözlərinə görə, İşçi qrupu hələ də yeni tərkibini formalaşdıra bilməyib: "Çünki çox adam indi həmin qrupdan çıxıb. Ramil Usubov, Zakir Qaralov, Ramiz Mehdiyev, Elmira Axundova artıq İşçi qrupunda deyil. Onların yerinə yeni üzvlər təyin olunmayıb. Eyni zamanda, araya koronavirus pandemiyası düşdü. Biz çox inanırdıq ki, bu tezlikdə hansısa əfv sərəncamı gerçəkləşə bilər. Amma hələ ki, nəsə alınmır. Nə olacağını bilmirəm, amma nəsə olacaq. Gözləyirik". İşçi qrupunun üzvü 15 İyun Milli Qurtuluş günü ərəfəsində əfv sərəncamının olub-olmamasına da aydınlıq gətirib: "Deyə bilmərəm, indidən nəsə söyləmək çətindir. Hər dəfə zəng vururuq. Bilirik ki, nəsə işlər gedir. Amma hələ ki, Əfv komissiyası yığışmayıb. Ümidimiz çox böyükdür. Bu aylarda nəsə olacaq. Əfv sərəncamı üçün müraciət edənlərin sayı çoxdur ".

✍ ***Tural***

# Azərbaycanda hidrometeorologiyanın inkişafına dair proqram hazırlanacaq

Ekologiya və ətraf mühitin mühafizəsi

## Aidiyyəti qurumlar tərəfindən bu sənədin 2030-cu ilə kimi hazırlanması qarşıya məqsəd kimi qoyulub

***“Bu il dövlət investisiyası hesabına Şamaxı və Göygöldə dopler radar sistemi quraşdırılıb. 2030-cu ilədək daha 3 müasir radar sisteminin ölkəmizdə quraşdırılması nəzərdə tutulur ki, bu da bütün ölkə ərazisində təhlükəli hava hadisələri ilə bağlı erkən xəbərdarlıq sisteminin əsas halqasını təşkil edən radiometeoroloji müşahidələrin aparılmasını tam əhatə edəcək”. Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin rəisi Umayra Tağıyeva jurnalistlərə müsahibəsi zamanı deyib. O vurğulayıb ki, yaxın zamanlara qədər buludlar üzərində müşahidələr keçən əsrin 70-ci illərinin istehsalı olan, mənəvi və texniki cəhətdən köhnəlmiş meteoroloji radiolokatorlar vasitəsi ilə həyata keçirilirdi:***



“Bu gün bütün dünyada hidrometeoroloji xidmətin əhəmiyyətini və vacibliyini daha çox anlamağa başlayıblar. Dövlətimiz tərəfindən bizim təşkilatın statusu artırılaraq departamentdən xidmətə çevrilib. Bu, bir daha hidrometeorologiya sahəsinə göstərilən yüksək diqqətin göstəricisidir. Bu gün xalq təsərrüfatının hər hansı bir sahəsinin inkişafını, hava-iqlim faktorunu nəzərə almadan təsəvvür etmək mümkün deyil. İqlim dəyişmələri ölkələrin davamlı inkişafı üçün əlavə risklər yaradır. Hava ilə bağlı təhlükəli hadisələrin tez-tez təkrarlanması iqtisadiyyata ziyan vurur, insanlar əziyyət çəkir. Bu gün iqtisadiyyatın iqlimdən asılı sahələrində, hidrometeoroloji proqnozlar və xəbərdarlıqlar nəzərə alınmaqla düzgün planlaşdırmanın aparılması, zərərdən yayınmağa, onu minimuma endirməyə, həm də qabaqlayıcı tədbirləri görməklə insan həyatını qorumağa imkan verir. Hazırda qarşımıza 2030-cu ilədək Hidrometeorologiyanın inkişafına dair Dövlət Proqramının hazırlanması ilə bağlı ciddi məsələ qoyulub”.

Qurum rəsmisi vurğulayb ki, bu proqramın əsas tezisləri, ilk növbədə, modernləşdirmə, optimallaşdırma, effektivliyin artırılması və keyfiyyət olacaq: “İstənilən meteoxidmətin əsasını müşahidə şəbəkəsi təşkil edir. Bu istiqamətdə mərhələli avtomatlaşdırma nəzərdə tutulur. Artıq bu il ölkənin əsas çayları üzərindəki hidroloji müşahidə məntəqələrində, bizim meteoxidmətin tarixində ilk dəfə olaraq su sərfi və səviyyəsini ölçən sensorlarla təchiz edilmiş müasir hidroloji avtomat stansiyalar quraşdırılacaq. İqlimin sürətlə dəyişdiyi şəraitdə, su ehtiyatlarının deqradasiyası fonunda çayların suluğunun dəqiq uçotunun aparılması sudan səmərəli istifadə baxımından əsas olacaqdır. Hidrometeoroloji məlumatların kənd təsərrüfatı üçün əhəmiyyəti, şübhəsiz ki, hamıya bəllidir. Bununla əlaqədar bu il ərzində struktur dəyişikliyi çərçivəsində 30 faizə qədər hidrometeoroloji stansiyaların təyinatı dəyişdirilərək aqrometeoroloji stansiyalara çevriləcək. Əvvəllər onların sayı 5 faizi keçmirdi. Fermer təsərrüfatları aqrometeoroloji icmallarla təmin olunacaq.

Bu sahədə Kənd Təsərrüfatı Nazirliyi ilə daha sıx və əlaqələndirilmiş işi qeyd etmək istərdik. Bir neçə kəlmə də bizim fəaliyyətimizin əsasını təşkil edən hava proqnozu barədə. Qlobal iqlim dəyişmələri fonunda müxtəlif transformasiyalar baş verir və atmosferdə qlobal rəqəmli modellərlə təsvir edilməsi çətin olan, proqnozlaşdırılması mümkün olmayan proseslər fiksə olunur. Sinoptik-meteoroloqların leksikonuna yeni anlayışlar daxil olub - isti və soyuq dalğaları. İqlimşünaslığın klassiklərinin kitablarında biz bu terminlərlə rastlaşmırıq. İqlim dəyişmələri ümumdünya problemlərindən biridir. Belə ki, əgər 30 il əvvəl gözlənilən iqlim dəyişmələrindən danışılırdısa, hazırda indiki nəsil bu transformasiya şəraitində yaşayır. Yeni şərait, yeni çağırışlar yaradır. Mümkün təhlükələr barədə erkən xəbərdarlığı yaymaqda məsul olan bir təşkilat kimi meteoxidmətin rolu artmaqdadır. Müasir iqlim çağırışlarına, ekstremal hadisələrə hazırlıq texniki vasitələrin və imkanların daha da təkmilləşdirilməsini zəruri edir”.

U.Tağıyeva, həmçinin qeyd edib ki, hazırda mövcud strukturun mərhələli optimallaşdırılması prosesi gedir: “Müasir şəraitdə öz əhəmiyyətini itirmiş ayrı-ayrı bölmələr ləğv edilib. Fəaliyyətlərinə görə yaxın, bəzi hallarda isə bir-birlərinin funksiyalarını təkrarlayan departamentlər birləşdirilib. Bu ildən Milli Hidrometeorologiya Xidmətinin məsuliyyət dairəsinə o cümlədən hava keyfiyyətinin monitorinqi də verilib. Bu sahədə də bəzi yeniliklər edilib. Ölkə ərazisində havanın keyfiyyətini müşahidə edən 5 onlayn avtomat stansiya quraşdırılıb. Bu xidmətin tərkibində havanın monitorinqini və ölkənin istənilən nöqtəsində ilkin analizi aparmağa imkan verən mobil laboratoriya vardır. Bakı, Neftçala, Qazax və Beyləqandakı laboratoriyalar, öz növbəsində, beynəlxalq standartlara uyğun olan avadanlıqlarla təchiz edilib. Neftçilərin əməyini və gəmilərin hərəkətinin hidrometeoroloji təhlükəsizliyini təmin edən, ən müasir avadanlıqlarla təchiz edilmiş 4 dəniz hidrometeoroloji stansiya avtomatlaşdırılıb. Yaxın gələcəkdə Xəzər üçün regional xüsusiyyətləri nəzərə alan lokal proqnozlaşdırma modelinin tətbiq edilməsi planlaşdırılır ki, bunun nəticəsində də bizim istehlakçıları dalğaların hündürlüyü və küləyin sürəti barədə daha dəqiq tərtib edilmiş 7 günlük proqnozlarla təmin etmək mümkün olacaq. Belə az bir müddətdə az iş görülməyib, lakin daha çox işlərin görülməsi qarşıda durur. Bütün bu uğurlar Xidmətimizə göstərilən böyük diqqətin nəticəsidir”.

Yeri gəlmişkən, son illər ölkəmizdə hava proqnozu sahəsində təqdim olunan məlumatların təkmilləşdirilməsi istiqamətində bir sıra addımlar atılmaqdadır. Məsələn, hazırda Milli Hidrometeorologiya Departamentinin hidrometeoroloji müşahidə şəbəkəsində struktur üzrə 54 Hidrometeoroloji Stansiya, 1 Aqrometeoroloji Stansiya, 1 İxtisaslaşdırılmış Göl Stansiyası, 2 Dəniz Hidrometeoroloji Stansiya, 6 Radiometeoroloji Stansiya, 1 Aeroloji Stansiya, 32 Hidrometeoroloji Məntəqə, 26 Hidroloji Məntəqə, 1 Buzlaq Məntəqəsi, 15 Meteoroloji Məntəqə, 8 Dəniz Hidrometeoroloji Məntəqəsi, 4 Aqrometeoroloji Məntəqə fəaliyyət göstərir. Respublika ərazisində, o cümlədən Xəzər dənizi akvatoriyasında meteoroloji, hidroloji, aqrometeoroloji, aktinometrik müşahidələr, dəniz hidrometeoroloji müşahidələrin fasiləsiz olaraq aparılması təmin edilir.

Onu da qeyd edək ki, Milli Hidrometeorologiya Departamentinin hidrometeoroloji müşahidə şəbəkəsinin avtomatlaşdırılmasına 2005-2006-cı illərdən başlanılıb, indiyə qədər 68 sayda avtomat tipli meteoroloji stansiyaların qurulması ilə meteoroloji müşahidə şəbəkəsinin avtomatlaşdırılması tam təmin olunub. Bu stansiyaların 34 ədədi Finlandiya istehsalı olan VAİSALA MAWS-310 tipli, 16 ədədi MAWS-301 tipli, 18 ədədi isə WXT-520 tipli avtomat meteoroloji stansiyalardır. Personalsız fəaliyyət göstərən avtomat meteoroloji stansiyaların sayı 17-yə çatdırılıb. Bu avtomat meteoroloji stansiyalarda havanın faktiki, minimal və maksimal temperaturu, şeh nöqtəsi, nisbi rütubət, atmosfer təzyiqi, yağıntının miqdarı, torpağın temperaturu, küləyin istiqaməti, küləyin ani və maksimal sürətləri ölçülür.

İşğaldan azad olunmuş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində 2017-ci ilin iyul ayında 0.10 ha sahədə yaşıllaşdırma işləri aparılaraq burada MAWS-310 tipli avtomat meteoroloji stansiya və həmin ilin iyun ayında Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhəri və Culfa rayonu ərazisində yerləşən hidrometeoroloji stansiyalarda MAWS-310 tipli avtomat meteoroloji stansiya quraşdırılaraq istifadəyə verilib. Bundan başqa, 2015-ci ilin noyabr ayında hidrometeoroloji məlumatların ötürülməsi və saxlanması prosesinin modernləşdirilməsi məqsədilə Milli Hidrometeorologiya Departamenti tərəfindən Fransanın “COROBOR Systems” şirkətinin MESSIR-COMM məlumatların toplanması-paylanması sistemi və MESSIR-CLIM iqlim məlumat bazası yaradılıb. Stansiyalardan daxil olan məlumatlar bu sistem vasitəsi ilə toplanılaraq arxivləşdirilir, beynəlxalq yayıma ötürülür və həmçinin mübadilə edilir.

Digər tərəfdən, Ümumdünya Meteorologiya Təşkilatına (WMO) ötürülməsi məqsədi ilə Regional Meteoroloji Məlumat Kommunikasiya Şəbəkəsinə (RMDCN) qoşulmaq üçün İngiltərənin Interoute şirkəti tərəfindən lazımı avadanlıqlar quraşdırılıb və şəbəkəyə qoşulub. Regional Meteoroloji Məlumat Kommunikasiya Şəbəkəsi (RMDCN) vasitəsilə ilkin olaraq Türkiyə üzərindən sinoptik xəritələrin alınması və iqlim məlumatlarının Ümumdünya Meteorologiya Təşkilatı və Türkiyə Respublikası ilə mübadiləsi həyata keçirilməyə başlanılıb.

✍ ***Sevinc***

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Beynəlxalq Biomüxtəliflik Günü

Ekologiya və ətraf mühitin mühafizəsi

## Hazırda dünyada 15 milyondan çox canlı növ mövcud olsa da, hər gün onların yüzə yaxını məhv olur

***22 may - Beynəlxalq Biomüxtəliflik Günüdür. Qeyd edək ki, əvvəllər həmin gün dekabrın 29-da qeyd olunurdu. 2000-ci il dekabrın 20-də BMT-nin Baş Assambleyası tərəfindən 22 may Bioloji müxtəliflik üzrə Konvensiya qəbul olunub və həmin gün Beynəlxalq Bioloji Müxtəliflik Günü elan edilib. Bu günün qeyd edilməsində əsas məqsəd dünyanın diqqətini təbii və antropogen faktorların təsirinə məruz qalan biomüxtəlifliyin qorunmasına yönəltməkdir. Məlumat üçün bildirək ki, hazırda dünyada 15 milyondan çox canlı növ mövcud olsa da, hər gün onların yüzə yaxını məhv olur. Nəticədə, Yer kürəsinin təbii zənginliyi gündən-günə azalır. Mütəxəssislər hesab edirlər ki, bioloji müxtəlifliyin belə sürətlə itkisi Yer kürəsində həyatın özünü təhlükədə qoymaqla qlobal faciəyə səbəb ola bilər.***



Yeri gəlmişkən, son illərdə Azərbaycanda ekoloji, o cümlədən bioloji müxtəlifliyin problemləri həlli vacib olan prioritetlər kimi müəyyən edilib və bu sahədə ciddi səylər göstərilir. Biomüxtəliflik üzrə Konvensiya Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 2000-ci ilin mart ayında ratifikasiya olunub. 2000-ci ilin yanvarında Monrealda Bioloji Müxtəliflik haqqında Konvensiyaya Əlavə Protokol qəbul edilib. Eyni zamanda, «Bitkilərin genetik ehtiyatlarına dair» Dövlət Proqramı, «Ətraf mühitin mühafizəsi üzrə» Milli Fəaliyyət Planı, «Ekoloji cəhətdən dayanaqlı sosial-iqtisadi inkişafa dair» Milli Proqram və digər proqramlar qəbul edilərək həyata keçirilir. Bundan başqa, Azərbaycan 1999-cu ildə Orhus Konvensiyasına qoşulub. Orhus Konvensiyası ətraf mühit hüquqları ilə insan hüquqlarını birləşdirən bir müqavilədir. Bu Konvensiyanın qəbul edilməsi əhalinin ekoloji, o cümlədən bioloji müxtəliflik haqqında məlumatlandırılmasına əlverişli şərait yaradıb.

Onu da bildirək ki, Azərbaycan Qafqaz regionunda ən zəngin təbii sərvətlərə malik ölkədir. Bioloji müxtəlifliyinə görə ölkəmiz dünyada özünəməxsus yerlərdən birini tutur. Müasir Azərbaycan faunası 18 000 canlıdan ibarət olub məməlilərin 97 növünü əhatə edir, bunlar 7 dəstəyə, 22 ailəyə və 39 cinsə daxildir. Təkcə onurğalılar faunamızda 700 növlə təmsil olunur. “Qırmızı kitab”a yarasaların 3, yırtıcıların 7 və dırnaqlıların 4 növü daxil edilib. Azərbaycanın “Qırmızı kitab”ına daxil edilən məməlilərdən ceyran, bəbir, sarıma (safsar), zolaqlı kaftar və vaşaqı göstərmək olar. Respublikanın quş faunası 357 növ və yarımnövü əhatə edən 17 dəstəni təmsil edir. “Qırmızı kitab”a 9 dəstəyə aid olan 36 növ daxil edilib: yırtıcıların 11, toyuqkimilərin 5, yastıdimdiklərin 4, göyərçinkimilərin 1, durnakimilərin 4, sərçəkimilərin 3, leyləkkimilərin 3, kürəkayaqlıların 2 növü. Adları “Qırmızı kitaba” salınmış quşlardan sultan toyuğu, turac, çöl qartalı, talış qırqovulu, şahin. qəşəng dovdaq, ağquyruq qartal, qu quşu, qıvrımlələk qutan, qırmızıdöş qaz, ərsindimdik, mərmər cürə və s. göstərmək olar.

Azərbaycanın su hövzələrində isə balıqların 10 dəstəyə, 16 ailəyə aid olan 100-ə yaxın növ və yarımnövü yaşayır. Onların üçdəbiri, ancaq dəniz həyat tərzi keçirir, qalan hissəsi isə şirin su hövzələrində yaşayır. Azərbaycanın “Qırmızı kitab”ına 5 növ daxil edilib: qızılxallı, ilanbalığı, poru, qılıncbalıq və dəniz sıfı, amfibiya və reptillərin 67 növ və yarımnövü respublikamızda yaşayır. Azərbaycanın həşəratlar aləmi də son dərəcə zəngin olub 25 minə yaxın növü əhatə edir. “”Qırmızı kitab”a 40 növ pulcuqlu qanadlılar, sərtqanadlılar və pərdəqanadlılar dəstəsinin nümayəndələri daxil edilib. Adı Azərbaycanın “Qırmızı kitab”ına salınmış kəpənəklərdən Şərqi aleksandra yelkincəyi, şəfəqsaçan, talış brameyası, avronina sarıcası, apollon, tamara alacası, nurduman apollonu, alp sarıcası, kəlləşəkilli haf, alp satiri, iri tənək hafı, talış məxməri kəpənəyi, kürd sarıcası, ioniya bərqvuranı və hilatanı; əsl arı və böcəklərdən isə porçinski zolaqlı arı, dağıstan zolaqlı arı, Mlokoseviç zolaqlı arı, fars zolaqlı arı, alp rozaliyası, Skovits uzun-bığı, qırmızı talış qaçağanı, qafqaz ilbizyeyən fısqırdanı, qəşəng böcək, fərat çapağanı, Solomon qızılböcəyi və palıd diserkasını göstərmək olar. Tədqiqatçıların məlumatına görə, respublikamızın florasında 4200 bitki növü məlumdur, onun 370-i Azərbaycanın endem bitkilərinə aiddir. Azərbaycan Respublikası ərazisində, demək olar ki, bitki örtüyünün bütün tiplərinə - qədim meşə borealı, səhra, kserofit, bozqır, Qafqaz və adventiv bitki örtüyünə təsadüf edilir. Qədim meşə borealı florasına Talışda, Kiçik və Böyük Qafqaz dağlarında, kserofil və Qafqaz bitki tiplərinə və sırf boreal bitki tipinə isə respublikamızın bütün bölgələrində təsadüf edilir. Səhra bitki örtüyü, əsasən, Kür-Araz ovalığı və Abşeron yarımadası üçün səciyyəvidir. Göstərilən bitki tipləri bir çox bitki qruplaşmaları əmələ gətirir. Azərbaycanın ayrı-ayrı coğrafi landşaft bölgələrinin flora zənginliyi müxtəlifdir. Naxçıvan MR-in ərazisi bitki növləri ilə daha zəngindir. Buranın bitki növləri respublika florasının 43 faizini təşkil edir.

Quba-Qusar dağ massivinin bitki növləri floramızdakı bitki növlərinin 40 faizini, Kiçik Qafqazın mərkəzi dağlıq hissəsi 34,5 faizini, Böyük Qafqazın şərq massivi 29,4 faizini, Talışın dağlıq hissəsi 27 faizini təşkil edir. Kiçik Qafqazın şimal yamacında bitki növləri nisbətən azdır. Kiçik Qafqazın dağlıq hissəsinin aşağı dağətəyi massivi, Böyük Qafqazın dağlıq massivinin qərb hissəsi, Kür-Araz ovalığı florası orta dərəcədə (23-26%) bitki növləri ilə zəngindir. Kür düzənliyi, Abşeron yarımadası, Qobustan, Samur-Dəvəçi florasında bitki növləri azdır. Respublika ərazisində 865-dən artıq şibyə, 500-ə qədər mamır növü vardır. Azərbaycanın yabanı dendroflorasında 460-a yaxın ağac və kol növünə təsadüf olunur ki, bu da respublika florasındakı bitki növlərinin 11faizini təşkil edir. Onların 70-i endem növü olub respublikamızdan kənarda bitmir.

Təbii ki, qoruqlar, yasaqlıqlar və milli parklar bioloji müxtəlifiyin qorunmasında mühüm rol oynayır. Hazırda ölkəmizdə ümumi sahəsi 892865,6 hektar olan xüsusi mühafizə olunan təbiət ərazisi, o cümlədən, 10 milli park, 10 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı fəaliyyət göstərir. Ümumilikdə, xüsusi mühafizə olunan təbiət sahələri ölkə ərazisinin 10,3 faizini təşkil edir. Təkcə ötən il ərzində biomüxtəlifliyin qorunması məqsədilə xüsusi mühafizə olunan təbiət ərazilərində və ovçuluq təsərrüfatlarında qanun pozucularına qarşı 777 akt və 161 protokol tərtib edilərək cərimələr tətbiq olunub. 55 iş hüquq-mühafizə orqanlarına, 50 iş isə rayon məhkəmələrinə və icra və probasiya şöbələrinə göndərilib.

Məlumat üçün onu da xatırladaq ki, Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənmiş “Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiya” çərçivəsində də biomüxtəlifliyin mühafizəsi üçün bir sıra tədbirlər planı nəzərdə tutulub. Tədbirlər planında təhsilin bütün pillələrində ətraf mühitin mühafizəsi, bioloji müxtəlifliyin qorunması, ekosistem xidmətləri ilə əlaqədar məsələlərin tədrisinin genişləndirilməsi, bioloji müxtəlifliyin qorunması üzrə resurs, informasiya və təlim mərkəzlərinin yaradılması, insan resurslarının bilik və bacarıqlarının artırılması üçün texniki potensialın gücləndirilməsi, xüsusi mühafizə olunan təbiət ərazilərinin turizm potensialı ilə bağlı məlumat bazasının genişləndirilməsi, təbiət abidələrinin inventarlaşdırılmasının həyata keçirilməsi, reklam xarakterli infoturların keçirilməsi, milli parklarda ekoloji turizmlə məşğul olan turoperatorların müəyyən edilməsi, media nümayəndələri, yerli və xarici turistlər üçün infoturların keçirilməsi nəzərdə tutulur. Tədbirlər planına görə, bioloji müxtəliflik komponentlərinin mövcud vəziyyətinin qiymətləndirilməsi, bitki və heyvan növlərinin inventarlaşdırılmasının həyata keçirilməsi və elektron məlumat bazasının yaradılması, bioloji müxtəliflik üzrə İnformasiya və Əvvəlcədən Xəbərdaretmə Sisteminin yaradılması, bioenerji resurslarının dəqiq uçotunun aparılması, Azərbaycan Respublikasının daxili sularında, sərhəd sularında və Xəzər dənizinin Azərbaycan sektorunda bioloji müxtəliflik komponentlərinin idarə edilməsinin təkmilləşdirilməsi, sənaye və məişət tullantıları ilə çirklənmənin qarşısının alınması, böyük yaşayış məntəqələri ətrafındakı su hövzələrinin bioloji müxtəlifliyinin qorunmasına dair tədbirlərin hazırlanması həyata keçirilməlidir.

✍ ***Sevinc***

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Ölkədə 134 mindən çox əcnəbi yaşayır

***"2020-ci il 1 yanvar tarixindən bu günə qədər keçən ilin müvafiq dövrü ilə müqayisədə əcnəbilərin sayında azalma var. Bu ilin yanvar-fevral ayında miqrasiya baxımından çox aktiv idi, 15 faiz artım olmuşdu". Bunu Dövlət Miqrasiya Xidmətinin (DMX) rəisi Vüsal Hüseynov onlayn mətbuat konfransında deyib.***



"Koronavirusa görə sərhədlərin bağlı qalması səbəbindən 44 faiz azalma olub. Hazırda ölkədə 134 mindən çox əcnəbi yaşayır. Əcnəbilər əsasən Rusiya, İran, Türkiyə, Ukrayna və digər ölkələrin vətəndaşlarıdır", - deyə Xidmət rəisi vurğulayıb. O qeyd edib ki, 1-15 mayda müraciətlərdə də azalma olub: "Ölkəyə gələn şəxslərin sayı kəskin azaldığı üçün müraciətlər də azalıb. Karantin müddətində Dövlət Miqrasiya Xidmətinin 24 saat fasiləsiz fəaliyyət göstərən 919 Çağrı Mərkəzi gücləndirilmiş iş rejimində çalışıb. Mart ayından mayın 15-dək Çağrı Mərkəzinə 92 967 zəng daxil olub. Zənglərin 36 337-si müvəqqəti olma müddətinin uzadılması, 24 624-ü müvəqqəti yaşama icazəsi, 2701-i iş icazəsi, 2006-sı daimi yaşama icazəsi, 1067-si inzibati xəta, 1444-ü vətəndaşlıq məsələləri, 4408-i olduğu yer üzrə qeydiyyat, 20 380-ni isə digər məsələlərlə bağlı olub. Bu da ötən illə müqayisədə təqribən 4 dəfə çoxdur. Daxil olan müraciətlərin hər biri diqqətdə saxlanılıb və operativ şəkildə cavablandırılıb. Dövlət Miqrasiya Xidməti maarifləndirmə tədbirlərini də davam etdirib. Bütün zəruri məlumatlar həm Xidmətin internet saytı, "Facebook" və "Twitter" sosial hesabları, həm də "(012) 919" Çağrı Mərkəzi vasitəsilə əcnəbilərə çatdırılıb". "Xüsusi karantin rejimi müddətində elektron xidmətlərdən istifadə edən əcnəbilərin sayı artıb". Vüsal Hüseynov onlayn mətbuat konfransında bildirib. Onun sözlərinə görə, bu ilin mart ayından mayın 15-dək DMX-nın müvəqqəti olma müddətinin uzadılması və işyaşama icazələri ilə bağlı elektron xidmətlərdən 6 691 nəfər yararlanıb.

"Bu isə ötən ilin rəqəmləri ilə müqayisədə 24 dəfə çoxdur. Məlumatlandırma işlərində səfirliklərə də məlumatlar göndərilirdi. Elektron xidmətlərdən istifadə çətinliyi ilə bağlı müəyyən inzibati məsuliyyətə cəlb olunması məsələsi idi. Bu məsələlərə həssas yanaşmışıq. Əgər şəxsin hər hansı müraciəti olubsa, Çağrı mərkəzi və ya elektron formada bütün bu məsələlər araşdırıldıqdan sonra həmin əcnəbilərin xeyrinə qərarlar qəbul edilir", - deyə o əlavə edib.

"Pandemiya dövründə Dövlət Miqrasiya Xidmətinə məsuliyyətsiz yanaşma, qərəzli fəaliyyətlə bağlı hər hansı müraciət daxil olmayıb", - deyə Vüsal Hüseynov bildirib.

O bildirib ki, ilkin dönəmdə elektron xidmətə kəskin keçid olub: "Bəzi hallarda müraciət edən şəxslər deyirdi ki, müraciət ediblər, əməkdaşlarımızdan müraciətlərin qəbul edilmədiyi cavabını alıblar, məni səhv yönləndiriblər və s. Biz bu cür məsələləri xüsusi həssaslıqla araşdırırıq. Bizim əməkdaşlarla bağlı belə vəziyyət olduqda həmin əcnəbilərin xeyrinə qərar verilir. Ümumilikdə bütün hallar araşdırılır". "Əcnəbilər ölkədə olma müddətinin uzunmüddətli artırılması ilə bağlı müraciət edə bilərlər", - Vüsal Hüseynov onlayn mətbuat konfransında bildirib. Xidmət rəisi deyib ki, həmin şəxslərin müraciəti üçün heç bir problem yoxdur: "Bu əcnəbilər 1, 2 və 5 illik ölkədə qalma ilə bağlı həm elektron, həm də fiziki qaydada qəbul şöbələrinə gedərək, müraciət edə bilərlər, amma gəldikdə əvvəlcədən növbəyə yazılmalıdırlar. Ümumilikdə, DMX bütün fəaliyyət istiqamətləri üzrə müraciətləri artıq qəbul edir".

"Mövcud qanuna əsasən Azərbaycan vətəndaşı digər ölkə vətəndaşlığını qəbul edəndə, 1 ay müddətinə DMX və ya xaricdəki səfirliyə məlumat verməlidir", - Vüsal Hüseynov bildirib. Onun sözlərinə görə, bununla bağlı Prezidentin təşəbbüsü ilə parlamentdə qəbul edilən qanun layihəsi var.

V.Hüseynov deyib ki, məlumat verməyəndə, həmin şəxs barəsində sərt cinayət məsuliyyəti nəzərdə tutulurdu: "Ancaq yeni qanuna görə, bu məsuliyyət aradan qaldırılır. Qanun qüvvəyə mindikdən sonra, gec məlumat verən şəxslər bu barədə rahat ola biləcəklər".

"Pandemiya ilə əlaqədar olaraq, readmissiya məsələləri dünya üzrə dayandırılıb", - Vüsal Hüseynov bildirib. Xidmət rəisi məsələ ilə bağlı xarici tərəfdaş qurumlarının da məlumatlandırıldığını bildirib: "Bu məqsədlə heç bir geri qaytarılma olmayıb. Ölkədə qaçqın statusu da dayandırılmışdı, artıq qəbul edirik. Xidmət pandemiya dövründə Operativ Qərargahın tövsiyələrinə uyğun olaraq, fasiləsiz, gücləndirilmiş iş rejimində çalışıb. Bu gün "ASAN xidmət" fəaliyyətini bərpa etdiyinə görə miqrasiya xidmətləri üçün müraciət etmək istəyənlər ora gedə bilərlər. "ASAN xidmət" olmayan regionlarda regional miqrasiya idarələrinə gedə bilərlər, mobil tətbiqlə növbə götürmək olar. Region idarələrində qəbul həyata keçiririk, qəbul şöbəsi daxilində əhali sıxlığı azdırsa, bu müraciətlər qəbul edilir".

"Bütün dünyada olduğu kimi, Azərbaycanda da pandemiya ilə mübarizə aparılır", - Vüsal Hüseynov onlayn mətbuat konfransında bildirib.

Onun sözlərinə görə, koronavirusun yayılmasının qarşısının alınması üçün Prezident İlham Əliyevin Sərəncamı ilə tərkibində Dövlət Miqrasiya Xidmətinin nümayəndəsinin də təmsil olunduğu Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən sistemli tədbirlər görülməklə yanaşı, miqrasiya məsələləri də diqqətdə saxlanılıb.

Xidmət rəisi bildirib ki, bütün dünyada olan pandemiya miqrasiyaya da təsirsiz ötüşməyib: "Bu gün sosial izolyasiya və evdə qalmadan danışırıqsa, insanların yerdəyişmə istəkləri məhdudlaşdırılır. Bu dövrdə DMX operativ uyğunlaşma həyata keçirməyə çalışdı. Ölkədə bir kontingent müvafiq yaşama icazəsi olanlardır, burada davamlı yaşayanlardır. İkincisi vizasız qaydada və ya vizalı müddətdə gələnlərdir. Karantin müddətində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sağlamlığının və təhlükəsizliyinin qorunması, onların rahatlığının təmini, evdən çıxma səbəblərinin minimuma endirilməsi məqsədilə DMX tərəfindən bir sıra xidmətlər yalnız elektron qaydada həyata keçirilib. Bu sənədlər elektron poçt vasitəsilə göndərilib".

✍ *Hafta.az*

# Nəsirəddin Tusi küçəsində abadlıq və təmizlik işlərinə fikir verilmir

**May ayının 11-dən karantin rejimi götürülsə də, koronavirus xəstəliyi hələ də ölkəmizdən yan keçməyib. Əhali arasında sözügedən xəstəliyin yayılma riski hər zaman baş qaldıra bilər. Paytaxtda təmizlik, dezinfeksiya işləri vaxtlı-vaxtında aparılsa da, lakin şəhərimizin elə qəsəbələri var ki, hələ də natəmizlik içindədir.**





Ərazilərdə abadlıq və təmizlik işlərinə ciddi fikir verilmir. Belə ərazilərə misal olaraq Xətai rayonu, Əhmədli qəsəbəsi, Nəsirəddin Tusi küçəsində yerləşən 19, 21 və 23 saylı yaşayış binalarının həyətini göstərmək olar. Həmin binaların həyəti böyük bir ərazini əhatə edir. Burada məişət tullantıları vaxtlı-vaxtında daşınmadığından, külək zibilləri ətrafa səpələyirdi. Həmin ərazidə futbol meydançasına da rast gəldik. Meydançanın ətrafında isə vaxtilə salınmış abad məhəllədən əsər-əlamət belə qalmayıb. Söhbətgahların oturacaqları sınıb-tökülüb, əraziyə qoyulmuş oturacaqların isə dəmir dirəkləri qalıb. Sakinlər özləri düzəltdikləri biriki sınıq-salxaq oturacaqda oturmuşdu, qalanları isə ayaqüstə gəzirdi. Uşaq oyuncaqlarının əksəriyyəti sıradan çıxıb, yelləncəklər və oyuncaqlar rənglənməyib, təmir edilməyib. Bir sözlə, ərazi toz-torpağın, natəmizliyin içində idi, heç bir abadlıq, təmir və bərpa işləri aparılmayıb. Bu da sakinlərin narazılığına gətirib çıxarır.

Telman adlı sakin dedi ki, qızım burada yaşayır: "Qızımın evində qalıram. Bu abad məhəllə sovet dönəmindən salınıb. Sakinlərin istirahəti üçün hər cür şərait vardı. Baxımsızlıqdan futbol meydançasının dəmir qapılarının dirəkləri qalıb, oturacaqlar və uşaq oyuncaqları sınıb tökülüb. Sakinlərin istirahəti üçün heç bir şərait yoxdur".

Sakinlər dedilər ki, bu ağacları sakinlər özləri əkib, bağ salmışdılar: "Xətai Rayon İcra Hakimiyyəti başçısının tapşırığı ilə gəlib sökdülər və dedilər ki, yerində abad məhəllələr salınacaq. Əraziyə baxan Xətai rayon MKTB 87 saylı Mənzil-Kommunal İstismar Sahəsinin rəisi Elşən müəllim bağları sökəndə sakinlərə söz verdi ki, qısa bir vaxtda abadlıq işləri aparacaqlar. Təəssüflər olsun ki, bağlar söküldü, amma yerində abad məhəllə salınmadı. Əksinə, baxımsızlıqdan sakinlərin min bir əzab-əziyyətlə əkdikləri ağaclar məhv olur. Ağacların dibləri boşaldılmır, budama işləri aparılmır, suvarılmadığından tələf olur. Məhəllədaxili yollar bərbad vəziyyətdədir. Heç olmasa, gəlib bu oturacaqları düzəltmirlər. Sakinlərin düzəltdikləri sınıq-salxaq oturacaqlarda oturmaq olmur. Bir neçə dəfə binalarda dezinfeksiya işləri aparılsa da, ərazilərdə və eləcə də dincəldiyimiz bu parkda bir dəfə də olsun təmizlik işləri görülməyib.

Oturacaqlar, uşaq oyuncaqları və sakinlərin sıx dayandıqları meydançalar dezinfeksiya edilmir".

✍ *Qələndər*

# Vətəndaşın pensiyasını mənimsəyən şəxs cinayət məsuliyyətinə cəlb edilib



**Azərbaycan Respublikasında dövlət strukturlarının əhalinin sağlamlığının qorunması və aidiyyəti sahələr üzrə xidməti fəaliyyətin təşkili istiqamətində səfərbər olunduğu bir vaxtda bəzi vəzifəli şəxslərin mövcud vəziyyətdən öz maraqları naminə istifadə edərək, vətəndaşların və dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, hakimiyyət orqanlarının işinə kölgə salan hüquqazidd əməllərə yol vermələrinə dair məlumatlar əsasında araşdırmalar aparılmaqla qanunamüvafiq tədbirlər həyata keçirilir.**

Baş Prokurorluğun mətbuat xidmətindən hafta.az-a bildiriblər ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Nəsimi rayon şöbəsinin sabiq əməkdaşı Ramiz Seyidəliyevin qanunsuz əməlləri barədə vətəndaşın daxil olmuş müraciəti Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Araşdırma zamanı Ramiz Seyidəliyevin qulluq mövqeyindən istifadə edərək vətəndaşı pensiya məbləğinin artırılmasına kömək edəcəyi vədi ilə aldadaraq pensiya kartını qanunsuz olaraq götürməklə 2013-2018-ci illər ərzində həmin kartdan ümumilikdə 83 min manat məbləğində pul vəsaitini ələ keçirməsinə əsaslı şübhələr müəyyən olunub. R.Seyidəliyev Cinayət Məcəlləsinin 178.3.2-ci (qulluq mövqeyindən istifadə etməklə külli miqdarda dələduzluq) və 29, 178.3.2-ci (dələduzluğa cəhd) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunub. Onun barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Hazırda iş üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla zərərçəkmiş şəxslərin dairəsinin müəyyənləşdirilməsi istiqamətində zəruri istintaq tədbirləri davam etdirilir. Bu qanunazidd hallarla üzləşən zərərçəkmiş şəxslərdən Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin 161 nömrəli "Qaynar xətt" əlaqə mərkəzinə zəng etmələri xahiş olunur.

# Nazirlik işəgötürənlərə xəbərdarlıq edib




**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Əmək müqaviləsi bildirişi" altsistemində əmək qanunvericiliyi və onun tətbiqi məsələləri ilə bağlı işəgötürənlər üçün mütəmadi olaraq məlumat və xəbərdarlıqlar, tövsiyə və bildirişlər yerləşdirilir.** Nazirlikdən hafta.az-a bildirilib ki, məqsəd bu sahədə işəgötürənlərin maarifləndirməsi və əmək qanunvericiliyinin tətbiqi sahəsində onlara köməkliyin göstərilməsidir. Bir sıra hallarda işəgötürənlər tərəfindən nazirliyə və Nazirlik Yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə daxil olan sorğular sahibkarların bu sahədə məlumatsızlığını göstərir. Fəaliyyətlərində hər hansı qanun pozuntusu aşkarlandıqda da, bunu əmək qanunvericiliyi və onun tətbiqi, qanunvericiliyin tələbləri barədə məlumatsız olmaları ilə əsaslandırırlar. Ona görə də nazirlik işəgötürənlərə "Əmək müqaviləsi bildirişi" altsistemində yerləşdirilən məlumat və xəbərdarlıqlar, tövsiyə və bildirişlərlə daim tanış olmağı və onları diqqətdə saxlamağı, bu əsasda da qanunvericiliyin tələblərinin yerinə yetirilməsini tövsiyə edir.

✍ *Hafta.az*

# Açıq havada toy keçirilə bilərmi?

**Toylarda daha çox insan olur. Buna görə də hələlik bu, gündəmzdə deyil. Toylarda insanların yaxın təmas etdiyini nəzərə alsaq, yoluxma halı daha da arta bilər.**

Hafta.az qafqazinfo-ya istinadən xəbər verir ki, bunu TƏBİB-in infeksion xəstəliklər üzrə işçi qrupunun rəhbəri Vasif Əliyev İctimai Televiziyada qonaq olarkən deyib. Qurum rəsmisi bildirib ki, açıq havada daha az adamın iştirakı ilə toyların keçirilməsi müzakirə oluna bilər: "Açıq havada ara məsafəsi saxlamaq və daha az adamın iştirakı ilə toyların keçirilməsi müzakirə oluna bilər. Amma düşünmürəm ki, Azərbaycanda toylar 30-40 nəfərdən ibarət



olsun. 300-400 nəfərin bir araya toplaşması isə yaxın günlərdə müzakirə mövzusu deyil".

# Koronaviruslu xəstələrə tətbiq olunan immun plazma müalicəsinin detalları açıqlanıb

**"Artıq konvalesent immun plazma, yəni virus infeksiyası keçirmiş və sağalmış insanlardan toplanan plazmalarla kritik ağır xəstələrin müalicəsinə başlamışıq.**

Bu müalicə üsulunda koronavirus keçirmiş və sağalmış insanların qanında xüsusi virus əleyhinə anticismlərin olması nəzərdə tutulur. 14-28 gün arasında bu cür donorlardan plazma toplanılır. Süni tənəffüs cihazına bağlı olan kritik ağır xəstələrdə venadaxili infuziya olunur".

■ **Bunu Milli Hematologiya və Transfuziologiya Mərkəzinin icraçı direktoru Valeh Hüseynov deyib.** O bildirib ki, donorlar 18-60 yaş arasında sağlam və koronavirus keçirmiş insanlardır: "Vurğulamaq istəyirəm ki, bu insanlarda 14 gün ərzində heç bir klinik əlamət olmamalı, təkrar götürülmüş koronavirus testi neqativ olmalıdır. Bütün mərhələləri keçəndən sonra, donorlar



bütün beynəlxalq standartlara uyğun olaraq donorluq müayinələrindən keçirlər. Hazır olduqdan sonra xüsusi aferez cihazları vasitəsilə periferik qandan plazma toplanılır. Aferez proseduru, təxminən, 45 dəqiqə çəkir. Donorun həyatı üçün heç bir təhlükə daşımır. İnfeksiya riski ciddi şəkildə məhdudlaşdırılır, çünki aferez proseduru zamanı birdəfə steril setlər istifadə olunur. Prosedurdan sonra donorlar sağlam şəkildə normal həyatlarına qayıda bilərlər. Toplanmış plazmalar bölünərək 4-6 saat ərzində kritik ağır xəstələrə istifadə oluna və ya dondurularaq saxlanılaraq sonra uyğun kriteriyaları olan xəstələrdə istifadə oluna bilər".

✍ *Hafta.az*

# Yaxın günlərdə şəhid ailələrinin mənzillə təminatına başlanacaq

**Yaxın günlərdə şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin 2020-ci il üzrə mənzillə təminatına başlanacaq. Avtomobillə təminat proqramı da davam edəcək.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən hafta.az-a verilən məlumata görə, Prezident İlham Əliyevin tapşırığına əsasən, şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə bu il azı 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub. Yaxın günlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həmin kateqoriyalardan olan vətəndaşların 2020-ci il üzrə mənzillə təminatına başlanacaq. Onlardan bir hissəsinə yeni yaşayış binalarından alınmış mənzillər veriləcək. Ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərin 2020-ci il üzrə avtomobillə təminatı işlərinə də yaxın günlərdə başlanacaq. Mənzillə və avtomobillə təminat tədbirləri il ərzində davam edəcək. Xatırladaq ki, indiyədək Nazirlik tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə 7600 mənzil və fərdi ev, müharibə əlillərinə 6750 avtomobil verilib.

✍ *Hafta.az*

# Orucluq immuniteti zəiflətmir

***Hələ qədim dövrlərdə dahi təbiblər Hippokrat, Avisenna, Parasels qısamüddətli aclığın köməyi ilə müxtəlif xəstəlikləri müalicə ediblər. Müasir təbabət də sübut edir ki, insanların xəstələnməsinə əksər vaxt orqanizmin həddindən artıq kalori ilə yüklənməsi səbəb olur. İndinin özündə də aclıqla müalicə ən qədim, ən davamlı müalicə növü kimi tanınır. Həkim dietoloqlar müəyyən müddətə ac qalmaq üçün fərqli növ pəhriz üsullarını təqdim edirlər.***



Bəzən isə Ramazan ayında tutulan orucu da müalicəvi aclıqla müqayisə edirlər. Pandemiya dövründə oruc tutmağın çətinlikləri, acqalmanın faydası və mənfi tərəfləri barədə suallarımızı Azərbaycan Tibb Universitetinin İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının dosenti Kamran Babayev cavablandırır.

***- Oruc zamanı uzun müddət ac qaldıqda fizioloji baxımdan düzgün qidalanmaya necə riayət olunmalıdır?***

- Məlumdur ki, aclıqla müalicə ən qədim, ən davamlı və ən səmərəli üsuldur. Hazırda dünyada alternativ müalicə üsulu kimi aclıq mərkəzləri fəaliyyət göstərir. Qidanın insan orqanizminə təsirini araşdıran görkəmli amerikan gigiyenisti Herbert Şelton bu qənaətə gəlib ki, insan aclığın köməyi ilə bütün xəstəliklərdən tam sağalmaqla "gəncliyini qaytara" bilər.

İnsan ac qaldıqda nəinki həzm aparatı, hətta bütün orqanlar dincəlir, bədən həzm işindən azad olur və öz-özünü təmizləməyə yönəlir. Bu işə, təbii ki, enerji sərfi tələb olunur. Məhz qida ilə aldığımız enerji azaldıqda orqanizm öz enerji ehtiyatlarından istifadə başlayır.

Sualınıza gəlincə, orucluq müddəti uzun olduğuna görə, hər gün imsaka-sahura qalxmaq mütləqdir. Bu zaman yaxşı qidalanmaq vacibdir, protein və liflə zəngin qidalar qəbul edilməlidir. Suda bişmiş yumurta, ətdən istifadə olunmalıdır. Tərkibində karbohidrat, zülal, yağ olduğundan xurma da faydalıdır. Qıcıqlandırıcı qidalar istifadə olunmamalıdır.

İftarda isə hədislərdə tövsiyə olunduğu kimi, "mədəni 3 hissəyə - hava, qida və su hissəsinə ayırmaq", iftarı xurma və su ilə açmaq məsləhətdir. Məlumdur ki, reflektor vərdişləri dəyişmiş mədə qida qəbulu zamanı müəyyən müddət - təqribən, 5-10 dəqiqə sakit vəziyyətdə qalır. Bunu fizioloqlar "reseptiv relaksasiya" dövrü adlandırırlar. Ona görə də qidalanmağa tədricən başlamaq lazımdır. Aclıq zamanı maddələr mübadiləsi zəiflədiyindən, mədənin həcmi azaldığından, mədəni birdən-birə çox yükləmək olmaz. Əks təqdirdə bu, bir sıra narahatlıqlar - köp, sancı və qəbizlik yarada bilər. Bu səbəbdən iftarda duru yeməklər, vitaminlərlə zəngin meyvə, tərəvəzlərə və süd məhsullarına üstünlük verilə bilər.

***- Koronavirusla mübarizənin əsas yolu orqanizmin möhkəmləndirilməsi, immunitetin artırılması ilə bağlıdır. Belə bir durumda oruc tutmaq məsləhətdirmi?***

- Orucun faydaları haqda saysız yazılara, elmi tədqiqatlara rast gəlinir. Orucda məqsəd sağlamlıqdır, çox yeyib-içmək deyildir. Oruc zamanı immunitetin zəifləməsinə dair heç bir dəlil tapa bilməzsiniz. Əksinə, elmi mənbələrdə orqanizmin illərlə yığılmış zərərli maddələrdən, zədələnmiş hüceyrələrdən təmizlənməsi, ürək-damar, bədxassəli, mədə-bağırsaq xəstəliklərinə qarşı müqavimətin artması, kök hüceyrələrin yaranması barədə kifayət qədər məlumata rast gəlinir. Bir sözlə, Ramazanda həzm sistemi istirahət edir, nəticədə immun sistemi isə güclənir.

Maraqlıdır ki, artıq dünyanın mənzərəsi dəyişir, İslam dəyərlərinə münasibət yenilənir. ABŞ-da iri magistral yol kənarlarında 1400 il əvvəl yaşamış peyğəmbər Məhəmmədin (s) hədisləri yayımlanır: "Əgər bir yerdə yoluxucu xəstəlik üz verərsə, oraya getməyin. Əgər sizin olduğunuz yerdə yoluxucu xəstəlik baş qaldırarsa, oranı tərk etməyin". Bu barədə həftəlik 4 milyon tirajla çap olunan "Newsweek" jurnalında da tanınmış bir professorun məqaləsi nəşr olunub (https://www.newsweek.com/prophet-prayer-muhammad-covid-19-coronavirus-1492798)

Bəli, koronavirusla mübarizədə bədənin qoruyucu imkanlarının artırılması zəruridir. Odur ki, orqanizmin mühafizə-immun sisteminə təsirli olan tibbi-nəbatidən bir vasitə - "Qara zirə" (çörəkotu) haqda bildirmək istərdim. Bu dəyərli bitki ilə bağlı dünyanın müxtəlif ölkələrində aparılmış tədqiqatlarda onun şəfalı təsiri aşkarlanıb və immuniteti gücləndirməsi bəyan olunur. Odur ki, bu vasitədən bol-bol istifadə olunması məqsədəuyğundur.

Qaraciyəri yeniləyən, bərpa edən ən effektiv müalicə üsullarından biri də oruc tutmaqdır. Qaraciyər enerji deposudur. 6-7 saat ac qaldıqdan sonra, orqanizm qaraciyərdəki ehtiyat enerjidən istifadə etməyə başlayır. Bu zaman yüngül ürəkbulanma, halsızlıq olması təbiidir. Çünki qaraciyər istirahətlə yanaşı, həm də daxilindəki enerjini yeniləyir. Aclıq zamanı xolesterin və triqliseridlərin səviyyəsi (damarların daxili divarını tutmuş yağlar) normallaşır. Pankreatitdən əziyyət çəkənlər üçün də oruc faydalıdır, sahurdan 6-7 saatdan sonra fermentativ aktivliyin azalması ilə ferment ifrazı olmadığından, özünü yandırmadığından, mədəaltı vəzin bərpasına imkan yaranır. Damarların divarlarında infarkt və ateroskleroza səbəb olan yığılmış xolesterol, toksin və ərp təbəqəsinin əridilməsi ağızdan bəzən dəridən də aseton qoxusunun olması ilə müşahidə edilir və sonradan tədricən aradan qalxır, nəticədə damarlar elastikləşir. Mədənin həcminin azalması da həddindən artıq yeməyin qarşısının alınması baxımından faydalıdır.

Beynin qanla yaxşı təchiz olunması yaddaşa faydalıdır; belə ki, ac qaldıqda beynin koqnitiv (təfəkkür, yaddaş və s.) funksiyaları xeyli yaxşılaşır. Maraqlıdır ki, bir çox dahi yazıçılar, musiqiçilər, rəssamlar bu üsuldan istifadə edirdi - öz əsərlərini yazmazdan əvvəl ac qalırdılar.

***- Orucluğun, ac qalmanın bədənin immun sistemini yenilənməsi barədə hansı elmi araşdırmalar var?***

- Yaponiyalı bioloq Yoşinori Ohsumi oruc tutmağın insan səhhətinə faydalı olduğunu elmi tədqiqatlarla isbat edib. Alim apardığı bu araşdırmalara görə, 2016-cı ildə Nobel mükafatına layiq görülüb. Yapon bioloqun araşdırmasının əsas mövzusu hüceyrələrin öz-özünü yeniləməsi idi. Dr. Ohsumi bütün işlərində, bədəni, toksik hüceyrələri bölməyə və tullantılardan xilas olmağa təşviq etmək üçün aclığı və orucu istifadə etdi. O, yenilənmə prosesinin oruc zamanı daha mükəmməl və sürətlə həyata keçməsini sübut edib. "Oruç ve Otofaji" (Yunanca "Avto", "Phagein"-"Öz-özünü yemək") arasındakı əlaqə, otofajinin (faqositozun) vücuda önəmli təsirləri barədə açıqlamalar olmuşdu. Ohsumi insan hüceyrələrinin tullantılarından necə qurtulduğu üzərində işləyirdi.

Kaliforniya Universiteti Herontoloji və Bioloji Elmlər Professoru Uolter Lonqo orucun kök hüceyrələrə "Aktiv ol" əmri verərək, onların immunitet sistemini yeniləyini müdafiə edir.

Ankara Onkoloji Tədris və Araşdırma Xəstəxanasının əməkdaşı dr. Olcay Kandemir Sakarya Universiteti Biologiya fakültəsində keçirdiyi "Orucla bağlı tibbi araşdırmalar və diet proqramlarına orucun təsiri" adlı konfransda bu mövzuya toxunub, oruc tutmağın faydalarından danışıb. Alim qeyd edib ki, oruc tutmaq tibbi terminologiyada "Intermittent Fasting" adlanır. Müəyyən müddətdə ac qalmağın bütün dünyada həkim-dietoloqların məsləhətləri sırasında yer almasına da diqqət mərkəzinə çəkən Olcay Kandemir deyib: "Gün ərzində yemək saatlarının arasını uzatmaq lazımdır. İki yeməyin arasında ən azı 6-8 saat zaman boşluğu olmalıdır. Tərkibindən, kalorisindən asılı olaraq qidanın həzmi 3-4 saatdan 8 saatadək dəyişə bilər. Sonra daxili enerjidən istifadə olunduqda bu çəkinin azalmasına və nəzarətdə saxlanmasına səbəb olur.

Bir sözlə, aclıq zamanı immun sisteminin fəaliyyəti yaxşılaşır. Məhz bu səbəbdən soyuqdəymə xəstəlikləri zamanı həkimlər daha az yeməyi, çəkini azaltmağı və çox maye qəbul etməyi tövsiyə edirlər. Orqanizm təmizlənir və cavanlaşır. Dərinin vəziyyəti yaxşılaşır. Xərçəng riski azalır. Ürək və qan damarları daha sağlam olur. Arterial təzyiq tənzimlənir. Orqanizmdə iltihablar azalır. Bir sözlə, orqanizmdə yeni bir immun-mühafizə sistemi yaranır. Orucla bədən və ruhumuz təmizlənir, saflaşır.

MƏDƏNİYYƏT

# Rasim Balayev səhhətinin hazırkı durumundan danışdı



**"Hazırda fizioterapiyaya gedirəm. Koronavirus araya düşdü deyə gedə bilmədim. Bu günlərdə müalicəmi davam etdirməyə başlamışam".**

Bunu hafta.az-a açıqlamasında Xalq artisti Rasim Balayev deyib. Xalq artisti hazırda heç bir film və ya tamaşalarla bağlı da təkliflər almadığını bildirib: "Hələ ki, heç nə yoxdur. Pensiya alıram. Dolanışığım normaldır". Qeyd edək ki, Xalq artisti bu ilin fevralında Türkiyədə boynundan əməliyyat olunub.

*✍ Tural*

# "Oskar" mükafatının vaxtı dəyişdirilə bilər

**Amerika Kino və Elm Sənətləri Akademiyası 2021-ci ildə keçirilməsi nəzərdə tutulan 93-cü "Oskar" mükafatının təqdimetmə mərasiminin vaxtını dəyişməyi düşünür. Bu barədə "Variety" jurnalı bildirib.**



Məlumatda hələlik bu yekun qərarın verilmədiyi qeyd olunub. Hazırda "Oskar"ın təqdimetmə mərasiminin 2021-ci il fevralın 28-də ABC teleşirkətinin efirində translyasiyası edilməsi nəzərdə tutulub. Jurnal mərasimin keçirilməsi ilə bağlı yeni tarix açıqlamayıb.

Koronavirus infeksiyasının yayılması səbəbi ilə Amerika Kino və Elm Sənətləri Akademiyası aprelin sonunda "Oskar"a təqdim olunan filmlərin baxışını müvəqqəti olaraq onlayn şəkildə keçirmişdi. Lakin qaydalara görə, yalnız Los-Ancelesin kommersiya kinoteatrlarında azı bir həftə nümayişdə olmuş filmlər mükafata təqdim edilə bilər.

İDMAN

# 14 yaşlı şahmatçımız qızlar arasında Avropa çempionatının qalibi olub



**Azərbaycan şahmatçısı 14 yaşlı Gülsənəm Ağayeva rapid üzrə qızlar və oğlanlar arasında keçirilən onlayn Avropa çempionatında qızıl medal qazanıb.**

53 ölkədən 1600-ə qədər şahmatçının iştirak etdiyi qitə çempionatının A qrupunda (reytinqi 1400-ə qədər olan şahmatçılar arasında) mübarizə aparan G.Ağayeva 7,5 xalla qızlar arasında qalib olub. Şahmatçımız oğlanlar və qızlar arasında yarışın nəticəsinə görə isə ikinci yeri tutub.

G.Ağayeva "Təhsil" RİM-in Lənkəran Şəhər Uşaq-Gənclər Şahmat Məktəbinin yetirməsidir. Məktəbin məşqçi-müəllimi Hikmət Şükürovun AZƏRTAC-a verdiyi məlumata görə, G.Ağayeva bu il İranın Rəşt şəhərində keçirilmiş beynəlxalq turnirdə 14 yaşadək şahmatçı qızlar arasında qalib adını qazanıb. O, Ağcabədidə yeniyetmə şahmatçılar arasında keçirilmiş Azərbaycan birinciliyinin seçmə yarışlarında da uğurla çıxış edərək 14 yaşlı qızlar arasında birinci yeri tutub. G.Ağayeva "Təhsil" RİM-in blits üzrə builki onlayn respublika birinciliyində isə ikinci pillədə qərarlaşıb. Bundan başqa, o, 2018-ci ildə keçirilmiş respublika şahmat olimpiadasında 12 yaşadək qızlar arasında ikinci, 16 yaşadək qızlar arasında isə üçüncü yeri tutub.

# Kriştianu Ronaldo 8 milyon avroya torpaq sahəsi alıb

**Portuqaliya millisinin və İtaliya "Yuventus"unun futbolçusu Kriştianu Ronaldo torpaq sahəsi alıb. 35 yaşlı hücumçu Lissabon Rivyerasında daşınmaz əmlaka sahib çıxıb. O, 10 min kvadrat-metrə yaxın sahə üçün təxminən, 8 milyon avro ödəyib.**



Bu ərazi Kaşkayşadakı Kinta-da-Mariyada yerləşir. Ronaldonun sahib olduğu ərazidə malikanənin tikintisinə başlanılıb. Lakin futbolçu burada yaşamaq barədə hələ düşünmür. Qeyd edək ki, Ronaldo ötən il ailəsi üçün Lissabonun mərkəzindəki ən bahalı apartamentlərdə 7,5 milyon avroluq ev alıb.

# "Rolls-Royce" 9 min iş yerini ixtisar edəcək




**Böyük Britaniyanın "Rolls-Royce" aviamühərrik şirkəti 9 min iş yerini ixtisar edəcək.**

Hafta.az xəbər verir ki, "Boeing 787" və "Airbus A350" kimi təyyarələri mühərriklə təchiz edən şirkət bu yolla ildə 1,6 milyard dollara yaxın vəsaitə qənaət etməyi planlaşdırır. Şirkətin icraçı direktoru Uorren İst bəzi müəssisələrin bağlana biləcəyini də istisna etməyib. Ümumilikdə "Rolls-Royce"un müəssisələrində 52 min nəfər işləyir.

# Bakıda Ramazan yarmarkası keçiriləcək

**Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən Ramazan bayramı münasibətilə paytaxtın 3 fərqli nöqtəsində "Kənddən Şəhərə" Ramazan yarmarkası təşkil olunacaq.**



Kənd Təsərrüfatı Nazirliyindən hafta.az-a verilən xəbərə görə, 23-24 may tarixlərində baş tutacaq yarmarka Nərimanov, Yasamal və Binəqədi rayonlarını əhatə edəcək.

"Kənddən Şəhərə" Ramazan yarmarkasının təşkilində əsas məqsəd bayramla əlaqədar paytaxt sakinlərinin kənd təsərrüfatı məhsullarına artan tələbatını yerli və təbii məhsullarla ödəmək, kiçik və orta fermer təsərrüfatları üçün alternativ satış kanalı yaratmaqdır.

Qeyd edək ki, koronavirus pandemiyası ilə əlaqədar olaraq "Kənddən Şəhərə" yarmarkalarının fəaliyyətində müvəqqəti fasilə yaranmışdı. Bu səbəbdən, Ramazan yarmarkası Nazirlər Kabineti yanında Operativ Qərargahın təsdiqlədiyi karantin normalarına əməl edilməklə təşkil olunacaq.

Belə ki, fəaliyyətə başlamazdan əvvəl yarmarkaların keçiriləcəyi ərazilərdə koronavirusla mübarizə tədbirləri çərçivəsində dezinfeksiya işləri aparılacaq, yarmarka ərazisinə daxil olan fermerlərin və ziyarətçilərin temperaturları ölçüləcək, fermerlər lazımi qoruyucu tibbi ləvazimatlarla (maska, əlcək, spirt və s.) təmin olunacaqlar.

"Kənddən Şəhərə" Ramazan yarmarkası aşağıdakı ünvanlarda baş tutacaq:

Yasamal rayonu, Hüseyn Cavid pr. ilə Seyfəddin Dağlı küçəsinin kəsişməsi (Space TV-nin yanı).

Binəqədi rayonu, Süleyman Sani Axundov 5B (İnqilab kinoteatrının yanı).

Nərimanov rayonu, "Gənclik" metrostansiyasının yanı.

Qeyd edək ki, "Kənddən Şəhərə" layihəsi çərçivəsində təşkil olunan yarmarkalarda satılan məhsullar bütünlüklə yerli istehsal olub, iştirak etmək üçün əvvəlcədən müraciət edən fermerlər tərəfindən satışa çıxarılır. Yarmarkalarda paytaxt sakinlərinə təqdim olunan məhsulların qiyməti digər satış mərkəzlərindən və bazarlardan münasibliyi ilə fərqlənir, aztəminatlı ailələrin, həmçinin digər paytaxt sakinlərinin büdcəsinə uyğun olur.

# Kavani "İnter"ə keçə bilər



**Fransanın PSJ futbol klubunun uruqvaylı hücumçusu Edinson Kavani İtaliyanın "İnter" klubuna keçə bilər. Bunu jurnalist Canluka Di Martsio bildirib.**

Onun sözlərinə görə, uruqvaylı hücumçunun Paris təmsilçisi ilə müqaviləsi yayda bitir. Bildirilir ki, "İnter" daha əvvəl "Napoli"nin oyunçusu Dris Mertensi transfet etmək istəyirdi, amma o klubda qalmağı seçib. Qeyd edək ki, 2019/20 mövsümündə E.Kavani PSJ-nin heyətində 22 oyun keçirib və 8 qol vurub.

# Millinin baş məşqçisi ilə müqavilə uzadılıb

**Belçika Futbol Federasiyası millinin baş məşqçisi Roberto Martineslə müqaviləni uzadıb. Hafta.az xəbər verir ki, ispaniyalı çalışdırıcının yeni sözləşməsi 2022-ci ilə qədər nəzərdə tutulub.**

Qeyd edək ki, Martines 2016-cı ildən yığmaya rəhbərlik edir. Komanda onunla DÇ-2018-də üçüncü yeri tutub.

